9 May Qələbə günüdür

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

№ 19 (1014) 9-16 may 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymıəti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


## BU GÜN ÖLKƏMİZ YENİ YOL-NƏQLİYYAT İNFRASTRUKTURU İLƏ DÜNYANIN APARICI ÖLKƏLƏRİ SIRASINDADIR



Mayın 7-də Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına layihənin texniki göstəriciləri barədə məlumat verməmişdir. Layihənin icrası yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi qovşağın inşasını texnoloji ardıcıllığa riayət olunmaqla aparıb.

Avtonəqliyyat vasitələrinin rahat və maneəsiz hərəkətini təmin etmək, paytaxt yollarında sıxlığın azaldılması istiqamətinə dövlətimizin başçısının tövsiyə və tapşırıqlarına əsasən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən tunelin inşasında məqsəd günün pik saatlarında metronun "Koroğlu" stansiyasının qarşısında yaranan tıxacı aradan qaldırmaqdır.

Bu layihənin icrası burada yarana biləcək tıxacların qarşısının alınmasında mühüm rol oynayır.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, yollarda tıxacların azaldılması məqsədilə layihə çərçivəsində Heydər Əliyev prospektində - Sabunçu yol qovşağından Böyük Şor yol qovşağınadək olan hissədə təmir-tikinti işləri aparılıb. Əsaslı şəkildə yenidən qurulan yolun bu hissəsinin uzunluğu 2,1 kilometr, eni isə ərazilərdən asılı olaraq 26-36 metr təşkil edir.

Yeni-yeni yol qovşaqlarının yaradılması, müasir yolların salınması, mövcudlarının isə ən yüksək səviyyədə yenidən qurulması Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsini təşkil edir. Bu layihələrin icrası, ilk növbədə nəqliyyat vasitələrinin, eyni zamanda, sərnişinlərin rahat və təhlükəsiz hərəkətinə mühüm töhfələr verir.

## Azərbaycan-Rusiya strateji tərəfdaşlıq əlaqələri uğurla inkişaf edir



Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Dövlətimizin başçısı Vladimir Putini Rusiya Federasiyasının Prezidenti vəzifəsinin icrasına başlaması münasibətilə təbrik edib, ona Rusiya xalqının firavanlığı naminə fəaliyyətində yeni uğurlar arzulayıb. Dövlətimizin başçısı, eyni zamanda, Rusiya Prezidentinə qarşıdan gələn 9 May - Qələbə günü münasibətilə də təbriklərini çatdırıb.

Prezident Vladimir Putin təbrikə və göstərilən diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib və öz növbəsində dövlətimizin başçısını qarşıdan gələn 9 May - Qələbə günü münasibətilə təbrik edib.

Prezident İlham Əliyev təbrikə görə təşəkkür edib.

Söhbət zamanı dövlət başçıları Azərbaycan-Rusiya strateji tərəfdaşlıq əlaqələrinin uğurlu inkişafını qeyd edib, ikitərəfli münasibətlərimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

## Bizim sosial siyasətimiz gözəl nəticələr verir

**"Biz xalçaçılıq sənətini yaşatmalıyıq, yaşadacağıq və belə fabriklərin açılması ölkəmizin ümumi inkişafını göstərir".**

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz filialının açılışında deyib. O, qeyd edib ki, son iki il ərzində artıq dördüncü xalça fabriki açılır və bu proses davam etdiriləcək. Burada 100-dən çox iş yeri açılıbdır, gələcəkdə 150 iş yeri yaradılacaq, bunun üçün hər cür şərait vardır.

Dövlət başçısı deyib: "Xalçaçılıq bizim milli sənətimizdir, milli sərvətimizdir. Azərbaycan xalqı bu sənəti əsrlər boyu yaşadır. Bizim xalçalarımız dünyanın aparıcı muzeylərində sərgilənir. Bakıda gözəl Xalça Muzeyi tikilib istifadəyə verilmişdir. Yəni, biz xalçaçılığı yaşatmaqla Azərbaycan xalqının nə qədər istedadlı olmasını dünyaya bir daha göstəririk. Eyni zamanda, gənc nəsil də, qızlar da bu sənətə cəlb olunurlar. Beləliklə, tam əminlik var ki, Azərbaycan dünyada xalçaçılığın inkişafında öz sözünü gələcəkdə də deyəcəkdir. İş yerlərinin yaradılması çox önəmli məsələdir. Qeyd etdiyim kimi, bu fabriklərin fəaliyyətə başlaması nəticəsində minlərlə iş yeri yaradılacaq. Digər mühüm məsələ ondan ibarətdir ki, Azərbaycan xalçası çox yüksək keyfiyyətə malikdir və onun satış qiyməti də yüksəkdir. Beləliklə, həm ölkə daxilində, həm də xaricdə satılan xalçalar Azərbaycan iqtisadiyyatına töhfə verəcək, ölkəmizə valyuta gələcək və qeyri-neft sektorumuz da inkişaf edəcək".

Prezident İlham Əliyev qeyd etmişdir ki, Xaçmazda digər infrastruktur layihələri icra edilir, qazlaşdırma artıq 80 faizdən çoxdur, yeni yollar salınır. Son illərdə 7 yol layihəsi icra edilib və əhalinin 70 faizi artıq yeni yollarla əhatə olunub. Bu proses gələn illərdə də davam etdiriləcəkdir. Elektrik enerjisi ilə heç bir problem yoxdur və Xaçmaz rayonunda qazlaşdırma 100 faizə çatmalıdır. Qarşıya belə vəzifə qoyulub, yaxın gələcəkdə biz buna da nail olacağıq.

Xaçmaza səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının açılışında iştirak edib.

Əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq məqsədilə ölkədə həyata keçirilən kompleks tədbirlər nəticəsində regionlarda içməli su təchizatı və kanalizasiya infrastrukturu müasir tələblərə uyğun olaraq yenidən qurulur, sakinlərin keyfiyyətli və fasiləsiz içməli su təminatı sahəsində mühüm nailiyyətlər əldə edilib. Respublikamızın mühüm aqrar-sənaye və turizm potensialına malik rayonlarından sayılan Xaçmazda əhalinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə kompleks tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2012-ci ildə başlanmış "Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrası başa çatıb.

Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşən "Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla Xaçmaz şəhərində 47 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 5 kəndi də daxil olmaqla, layihədən 58 min nəfər faydalanacaq.

Layihə çərçivəsində Xaçmaz şəhərində 148 kilometr içməli su şəbəkəsinin, şəhərin relyef baxımından ən yüksək hissəsində yeni salınmış yaşayış massivinin dayanıqlı su təminatı məqsədilə nasos stansiyasının, 136 kilometr kanalizasiya şəbəkəsinin və şəbəkə üzərində 10 min 390 baxış quyusunun inşası, hər evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilib. Eyni zamanda, tullantı sularının təmizləyici qurğuya ötürülməsi məqsədilə 1,2 kilometr uzunluğunda əsas daşıyıcı kollektor tikilib.

Hazırda sutkalıq məhsuldarlığı 20 min kubmetr olan tullantı sutəmizləyici qurğunun tikintisi üzrə tender prosesi yekunlaşmaq üzrədir. Qurğuda Xaçmaz şəhəri ilə yanaşı, Quba, Qusar şəhərlərinin, həmçinin Şahdağ Qış-Yay Turizm Kompleksinin də tullantı suları təmizlənib kənarlaşdırılacaq.

Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi" Xaçmaz şəhəri ilə yanaşı, Qusar, Naftalan, Qobustan və Xızı şəhərlərinin də içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını əhatə edir. Artıq bu şəhərlərdə su və kanalizasiya şəbəkələrinin tikintisi yekunlaşıb. Layihənin sonuncu


PAŞA Bank

9 May - Qələbə günü münasibəti ilə Azərbaycan xalqını təbrik edirik!



mərhələsində tullantı sutəmizləyici qurğuların inşası həyata keçiriləcək.

Ümumilikdə 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. Bu şəhərlərin 25-də su və kanalizasiya şəbəkələrinin, 10-da isə su şəbəkəsinin inşası yekunlaşdırılıb. Bu ilin sonuna qədər daha bir neçə şəhərdə işlərin başa çatdırılması nəzərdə tutulub.

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən ölkə əhəmiyyətli yollarla yanaşı, yeni kənd yollarının inşası, mövcudlarının isə müasir səviyyəyə çatdırılması sahəsində mühüm layihələrin icrası uğurla davam edir. Onlardan biri də Xaçmaz-Xudat avtomobil yoludur. Bu yolun yenidən qurulması ilə bağlı həyata keçirilən layihə sübut edir ki, ölkəmizdə avtomobil yollarının tikintisi və yenidən qurulması davamlı xarakter alıb. Bu tədbirlər vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycan iqtisadiyyatının inkişaf səviyyəsini göstərir. Kənd və qəsəbələri birləşdirən yolların müasir səviyyədə yenidən qurulması, ümumilikdə, həmin bölgənin turizm potensialının möhkəmləndirilməsi işinə də xidmət göstərir. Yolların yenidən qurulması yerləşdikləri ərazilərdə yük və sərnişin daşımasını xeyli yaxşılaşdırır, yetişdirilən məhsulların rahat şəkildə yaxın-uzaq bazarlara daşınmasına imkan yaradır. Bu da kənd təsərrüfatının inkişafına müsbət təsir etməklə yolboyu yaşayan əhalinin sosial rifahının yüksəlməsinə imkan verir.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaza səfəri çərçivəsində Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunun, Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 24-48 kilometrlik hissəsini təşkil edən Xaçmaz-Xudat avtomobil yolunun açılışını edib.

Xaçmaz-Xudat avtomobil yolunun yenidən qurulması 54 min nəfər əhalisi olan 59 yaşayış məntəqəsini birləşdirən yük və sərnişin daşımasını xeyli yaxşılaşdırmağa, bölgədə turizmin inkişafına imkan verməklə yanaşı, Yalama sərhəd keçid məntəqəsi ilə rahat nəqliyyat əlaqəsini də yaratmış olur. Bu da həmin yolun həm də beynəlxalq əhəmiyyətinin bir göstəricisidir.

**Bizim sosial siyasətimiz gözəl nəticələr verir və sosialyönümlü addımlar bundan sonra da atılacaqdır.**

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Xızı şəhərində və Altıağac qəsəbəsində içməli su təchizatı sistemlərinin yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin yekunlaşması ilə bağlı keçirilən mərasimdə deyib. O, qeyd edib ki, Xızıda içməli su layihəsinin başa çatması ilə biz demək olar ki, şimal zonasının bütün şəhərlərinin içməli su problemini həll etmiş oluruq. Əvvəlki dövrlərdə Qusar, Quba, Şabran, Siyəzən şəhərlərinin, bu gün isə biz Xaçmaz şəhərinin içməli su layihəsinin açılışını qeyd etdik. Yəni, şimal zonasının şəhərlərinin içməli su ilə bağlı problemləri öz həllini tapıbdır.

Dövlər başçısı qeyd edib ki, ölkəmizdə bütün sosial layihələr uğurla icra edilir. Heç bir sosial layihədə heç bir yubanma yoxdur. Hətta bizim üçün o qədər də asan olmayan, əvvəlki böhranlı illərdə də sosial layihələr tam miqyasda icra edilmişdir. Burada mərkəzi rayon xəstəxanası açılmışdır. Rayonda 10-na yaxın məktəb tikilmişdir, infrastrukturla bağlı olan digər layihələr icra edilir, qazlaşdırma 90 faizdən çoxdur. Demək olar ki, artıq bütün yaşayış məntəqələri qazla təmin olunub. İndi Xızı rayonu bizim ümumi enerji sistemimizi böyük həcmdə elektrik enerjisi ilə təmin edəcək. Yeni Yaşma Külək Elektrik Stansiyası artıq fəaliyyətə başlayır, yoldan keçəndə də bunu görmək mümkündür. Kənd yolları salınır. Bu gün bir yolun açılışını qeyd edəcəyik. Mənə verilən məlumata görə, kənd yollarının 50 faizi yenidən qurulub və ya əsaslı təmir olunub.

Prezident İlham Əliyev demişdir: "Bir sözlə, Xızı rayonunun sosial-iqtisadi inkişafı uğurla gedir. Ümid edirəm ki, gələcək illərdə kənd təsərrüfatı sürətlə inkişaf edəcək. Çünki Taxtakörpü su anbarının tikintisi və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində bütövlükdə bu bölgədə 30 min hektar torpaq sahəsi su ilə təmin ediləcəkdir. Bunun 12 min hektarı Xızı rayonunun payına düşür - 9 min hektar yeni suvarılan sahələr olacaq, 3 min hektar isə su verilmiş, ancaq kifayət qədər olmamış sahələrdir. Son məlumata görə, bu 9 min hektar yeni suvarılacaq torpaqlardan 3 min hektarı artıq suvarma suyu ilə təmin edilib. Əlbəttə, biz gözləyirik ki, Xızı rayonunda kənd təsərrüfatı sürətlə inkişaf etsin.

Ölkəmizin ümumi sosial-iqtisadi inkişafı da çox müsbətdir. Üç ayın göstəriciləri bizi çox sevindirir. Əminəm ki, biz dinamikanı nəinki saxlayacağıq, həm də artıracağıq. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir. Sosial məsələlərin həllinə gəldikdə, bu günə qədər bir çox sosialyönümlü layihələr həyata keçirilibdir. Bu layihələrin həyata keçirilməsi davam etdiriləcək, eyni zamanda, bütün sosial sahədə tam şəffaflıq yaradılmalıdır. Bu, yeni dövrün tələbidir.

Əvvəlki dövrlərdə də mən qarşıya bu vəzifəni qoymuşam və bu gün bir daha çox ciddi tapşırıq verirəm ki, sosial sahədə maksimum şəffaflıq təmin edilməlidir. Əminəm ki, ediləcək və sosial ədalət tam bərqərar olmalıdır".

Sonra prezident İlham Əliyev Giləzi-Xızı avtomagistralını Fındığan kəndi ilə birləşdirən yolun açılışında iştirak etmişdir.

# Daşkənd Maliyyə İnstitutu və Sumqayıt Dövlət Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

Sumqayıt Dövlət Universitetində "İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Sumqayıt Dövlət Universitetində (SDU) keçirilən "İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" mövzusundakı beynəlxalq elmi konfransda Özbəkistanın Daşkənd Maliyyə İnstitutu və SDU arasında təhsil və elmi-tədqiqat sahələri üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.



Konfransda Milli Məclisin deputatları, ali məktəb rektorları, o cümlədən Azərbaycan, Rusiya, Türkiyə, Qazaxıstan, Özbəkistan və digər ölkələrin aparıcı universitetlərinin iqtisadçı alimləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, beynəlxalq konfransı universitetin rektoru, professor Elxan Hüseynov açaraq, SDU-nun yaranma tarixi, fəaliyyət istiqamətləri, həyata keçirdiyi beynəlxalq proqram və layihələr barədə məlumat verib. Bildirilib ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi müstəqil Azərbaycanda dövlət, eləcə də beynəlxalq və türk dünyası səviyyələrində qeyd edilir. Bu tarixi gün Azərbaycan xalqının həyatına əlamətdar hadisə kimi daxil olub. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini göstərib.

Rektor Cümhuriyyət hökumətinin həyata keçirdiyi iqtisadi islahatların əsas mahiyyətini, hədəflərini təhlil edərək, xüsusən də aqrar islahatlar, mülkiyyətin bütün formalarına bərabər şəraitin yaradılması, maliyyə-vergi siyasəti, milli valyutanın buraxılması, dövlət bankının yaradılması, dövlət büdcəsinin formalaşdırılması, dağılmış infrastrukturun yenidən qurulması, sənayenin inkişafı istiqamətində atılan addımlar, xarici ticarət əlaqələrinin qurulması sahəsindəki mühüm addımlarını xüsusi qeyd edib.

O, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlərin sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdığını diqqətə çatdırıb. Vurğulanıb ki, son illər Prezident İlham Əliyevin düşünülmüş, çevik və qətiyyətli iqtisadi siyasəti sayəsində əldə olunmuş uğurlar daha da möhkəmləndirilib, ölkəmiz iqtisadi sahədə keçid dövrünü uğurla başa çatdırıb. Davamlı və dinamik inkişafı özündə ehtiva edən özünəməxsus milli inkişaf modeli ilə tanınan Azərbaycan hazırda inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır və yeni-yeni uğurlara imza atır.

Rektor çıxışının sonunda bildirib ki, iki gün davam edən konfransın məqsədi yerli və xarici mütəxəssisləri, alimləri, ictimai xadimləri bir araya gətirmək, mövzu ətrafında müzakirələr aparmaq, innovativ fikirlər paylaşmaq və tövsiyələr hazırlamaqdan ibarətdir.

Konfransda Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə "İqtisadi təhlükəsizlik: müasir problemlər və çağırışlar" mövzusunda çıxış edərək deyib ki, müasir dövrdə qloballaşan dünya iqtisadiyyatı şəraitində ölkələrin iqtisadi təhlükəsizlik probleminin ön plana çəkilməsi obyektiv bir zərurətdir. İqtisadi təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayan maliyyə sabitliyinin, maliyyə sisteminin dayanıqlılığının, iqtisadi təhlükəsizliyin iqtisadi inkişaf və onun səmərəliliyi ilə sıx əlaqədə olduğu sübut edilir. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsidir.

Deputat Vahid Əhmədov konfransın mühüm və aktual bir məsələyə həsr olunduğun bildirib. Qeyd edib ki, hər bir ölkənin iqtisadi təhlükəsizliyində zəruri maliyyə, istehsal, əmək, intellektual potensial, effektiv funksiyalaşmaya təminat verən istehsalatın təşkili sistemi mühüm rol oynayır. Bu gün Azərbaycan Qafqazda iqtisadi cəhətdən güclü dövlətdir. Son illər respublikanın iqtisadi təhlükəsizliyinin təmin olunmasında mühüm nəticələr əldə edilib.

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov vurğulayıb ki, 1969-cu ildə ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəldiyi ilk dövrdə aqrar sahənin inkişafına nail olundu. Həmin vaxt kənd təsərrüfatı sahəsində də çox böyük irəliləyişlər əldə edilib. İbad Abbasov ulu öndərin yürütdüyü siyasətin, iqtisadi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycanın bu gün Şərqlə Qərbi birləşdirən əlverişli tranzit məkan kimi Avropa üçün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Konfransda Azərbaycan Dövlət İqtisad Universitetinin elm şöbəsinin müdiri, iqtisad elmləri doktoru, professor Zahid Məmmədovun, X.Ə.Yasəvi adına Beynəlxalq Qazax-Türk Universitetinin İqtisadiyyat və maliyyə kafedrasının müdiri, professor Boraş Mırzaliyevin, Belarus Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun direktor müavini, iqtisad elmləri namizədi Andrey Pilyutikin, İqtisadi və Sosial İnkişaf Mərkəzinin İdarə Heyətinin sədri, dosent Vüqar Bayramovun, SDU-nun Biznesin təşkili və menecment kafedrasının müdiri, dosent Qalib Hüseynovun məruzələri dinlənilib. Sonra beynəlxalq elmi konfrans işini bölmə iclaslarında davam etdirib.

Elmi konfrans çərçivəsində Özbəkistanın Daşkənd Maliyyə İnstitutu və Sumqayıt Dövlət Universiteti arasında təhsil və elmi-tədqiqat sahələri üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.

Konfransa 195 tezis qəbul edilib və konfrans materialları toplu şəklində çap olunub.

# "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi" Beynəlxalq Assosiasiyası çərçivəsində müqavilə imzalanıb




Müqaviləni Azərbaycan, Türkiyə, Qazaxıstan, Ukrayna, Gürcüstan tərəfi imzalayıb. Müqavilə "Qazaxıstan Dəmir yolları" SC, "Azərbaycan Dəmir yolları" QSC, "Gürcüstan Dəmir Yolları" şirkəti, Aktau Beynəlxalq Dəniz Ticarət Limanı, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, Batumi Dəniz Limanı, Türkiyə Dövlət Dəmir Yolları, Ukrayna Dəmir Yolları arasında imzalanıb.

# Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə indiyədək 61 milyard kubmetr qaz ötürülüb

Bu vaxtadək Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz Boru Kəməri - CQBK) boru kəməri ilə 61 milyard kubmetr təbii qaz ixrac olunub.

Bu barədə energetika naziri Pərviz Şahbazovun "Azərbaycan" qəzetində dərc edilən məqaləsində deyilir. Qeyd edək ki, cari ilin ilk 3 ayında həmin boru kəməri ilə 2 milyard 46,2 milyon kubmetr qaz göndərilib.

2017-ci ildə isə Cənubi Qafqaz Boru Kəmərinin gündəlik orta ötürücülük gücü təqribən 20,5 milyon kubmetr qaz olub. Ötən il CQBK ilə bağlı fəaliyyətlərə təqribən 29 milyon dollar əməliyyat və 784 milyon dollar əsaslı xərclər sərf edilib.

2006-cı ilin sonlarında istismara verilən boru kəməri hazırda Azərbaycan, Gürcüstan və Türkiyəyə "Şahdəniz" qazını çatdırır. Kəmərin iki operatoru var – BP şirkəti CQBK obyektlərinin tikintisi və istismarı üzrə məsul texniki operatoru, SOCAR isə CQBK-nın biznes icrası üzrə məsul kommersiya operatorudur. Cənubi Qafqaz Boru Kəməri şirkətinin sərmayədarları belədir: BP (operator – 28,8 faiz), "AzŞD" (10 faiz), "Cənub Qaz Dəhlizi Midstrim" (6,7 faiz), "Petronas" (15,5 faiz), "LUKOIL" (10 faiz), "NICO" (10 faiz) və "TPAO" (19 faiz).




# Paytaxtın elektrik enerjisi, qaz və buxar istehsalı sektorunda 184 milyon manatlıq məhsul istehsal edilib



Cari ilin birinci rübündə Bakının elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 184,5 milyon manat dəyərində məhsul istehsal edilib və xidmətlər göstərilib.

Bakı Şəhər Statistika İdarəsindən bildirilib ki, bu ilin ilk 3 ayında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,7 faiz artım müşahidə olunub. Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların və göstərilmiş xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7,4 faiz azalaraq 51,4 milyon manat təşkil edib.

# İQTİSADİYYATI BELƏ İDARƏ ETMƏZLƏR

**Ulu öndər Heydər Əliyevin respublika rəhbərliyinə seçilməsi ərəfəsində Azərbaycan iqtisadiyyatı sürətlə dağılırdı. Dövlət müstəqilliyinin itirilməsi təhlükəsi yaranmışdı.**
**Bu çətin dövrdə (1993-cü ildə) akademik Ziyad Səmədzadə "Azərbaycan" qəzetinə "İqtisadiyyatı belə idarə etməzlər" adı ilə müsahibə vermişdi. 25 il əvvəl yazıldığına baxmayaraq, mövzunun bu gün də aktuallığını qoruyub saxladığını nəzərə alaraq, həmin müsahibəni olduğu kimi nəzərinizə çatdırırıq.**

*Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.*

***İlham ƏLİYEV***

**– Ziyad müəllim, artıq otuz ildir ki, Azərbaycanın iqtisadi problemləri ilə məşğul olan iqtisadçı alim, həm də bu sahədə uzun müddət çalışan dövlət xadimi kimi tanınırsınız. Bir mütəxəssis kimi Azərbaycan iqtisadiyyatının bugünkü vəziyyəti haqqında fikirlərinizi bilmək istərdik.**

– Açığını deyim ki, xalqımızın başına gələn faciələr o qədər dəhşətlidir ki, müstəqilliyimizə vurulan zərbələr o qədər ağırdır ki, başqa bir məsələdən danışmaq istəmirsən. Lakin bu da bir həqiqətdir ki, iqtisadiyyatı güclü olmayan dövlət özünün müstəqilliyini, əhalisinin təhlükəsizliyini qorumaq imkanına malik ola bilməz.

***Bu gün ölkəmiz öz tarixinin ən ağır mərhələlərindən birini yaşayır. Bu sözlər xoşa gəlməyən ənənəyə çevrilməkdə olsa da, təəssüf ki, həqiqətdir. Azərbaycanın ictimai həyatının bütün sahələri kimi respublikanın iqtisadiyyatı da çox dərin böhran içindədir. On illərlə Azərbaycan iqtisadiyyatına ayrılmaz tellərlə bağlanan bir adam kimi onun indiki vəziyyəti haqqında danışmaq mənə ağır gəlir. Bir neçə il geriyə qayıdaq. Dövlət müstəqilliyini əldə edən anadək Azərbaycan (mən bunu tam məsuliyyətlə deyirəm) möhkəm iqtisadi potensiala malik idi. Həm də zənnimcə, ən mühüm bu idi ki, Azərbaycanın tərəqqiyə, daha yüksək iqtisadi inkişaf səviyyəsinə meyli son illərdə bariz şəkildə nəzərə çarpırdı. 70-ci illərdə yaradılmış potensial başqa respublikalar kimi bizdə də mövcud olan bir sıra kəskin sosial-iqtisadi problemlərə baxmayaraq, 90-cı illərin dağıdıcı proseslərinə qarşı bir növ immunitet rolunu oynamalı idi. Əlbəttə, başa düşürəm ki, belə ağır vəziyyətdə olan respublikadan keçid dövründə hansısa ciddi nailiyyətlər gözləmək sadəlövhlükdür. Lakin biz milli iqtisadiyyatı dağılmağa qoymaya bilərdik. Niyə bu günə düşdük? Bəzən kələyə əl atıb əsl vəziyyəti gizlətmək cəhdlərinə baxmayaraq, Azərbaycanda istehsalın tənəzzül sürəti keçmiş İttifaqın respublikaları arasında ən yüksəkdir. Əhalinin geniş kütlələri getdikcə daha çox dilənçi kökünə düşür ki, bu da həyat səviyyələri arasında kəskin fərq nəzərə alınsa, cəmiyyətdə sosial gərginliyin əlavə mənbəyidir. Azərbaycan xalqı işləməyi sevir və bacarır.***

Müstəqil dövlət quruculuğu yolunun başlanğıcında Azərbaycanın rastlaşdığı problemlər keçmiş İttifaqın bütün respublikalarının qarşılaşdığı bir çox problemlərin eynidir. SSRİ-nin dağılması, az sonra təsərrüfat əlaqələrinin pozulması, iqtisadi fəaliyyət şəraitinin dəyişməsi, Dağlıq Qarabağla əlaqədar zorla cəlb olunduğumuz müharibənin və respublika daxilindəki səbatsızlığın daha da ağırlaşdırdığı çətinliklər böhranlı vəziyyətin əlavə katalizatorları olmuşdur. Lakin milli iqtisadiyyatdakı tənəzzülü yalnız obyektiv səbəblərlə izah etməyə çalışmaq qətiyyən düzgün olmazdı.

Çünki bu gün hətta müfəssəl təhlil aparmadan iqtisadiyyatda kobud, bağışlanmaz nöqsanlar buraxıldığı barədə nəticə çıxarmaq olar. Zənnimcə, oxucuları rəqəmlərlə yormağa ehtiyac yoxdur. Arasıkəsilməyən inflyasiya prosesləri, sürətli qiymət artımı, bank strukturları işinin getdikcə pozulması, bir sözlə, bütün maliyyə-kredit sisteminin dağılması hərtərəfli xarakter almışdır.

Azərbaycan iqtisadiyyatı ağır, yorucu müharibə aparan bir ölkənin iqtisadiyyatıdır. Əslində isə sərt hərbi şərait nəzərə alınmaqla xalq təsərrüfatımızı yenidən qurmaq üçün hətta lazımi cəhdlər də edilmir. Ümumiyyətlə, ölkəmizin iqtisadiyyatı bir neçə il düşmənin işğalı altında olan və çox iri təzminat ödəyən dövlətin iqtisadiyyatını xatırladır. Son il yarım ərzində Azərbaycanın təbii resurslarının talan edilməsi ümumi hal almışdır, halbuki iqtisadi təhlükəsizlik siyasətinin prioritetliyi başlıca məsələ olmalıdır.

Ümumiyyətlə, mən belə bir məqama diqqət çəkmək istərdim ki, suverenlik, müstəqillik, dövlət rəmzi, ölkənin qüdrəti haqqında söhbətlər arxasında biz sənaye casusluğu və dövlətin iqtisadi maraqlarının müdafiəsi kimi anlayışlar haqqında tam unutmuşuq. İfratçılıqdan ifratçılığa köklənmək olmaz. Keçmiş İttifaqın iqtisadi həyatda, elm və texnika üzrə bütün məsələlərdə ümumi, bəzən absurd məxfilik şəraitindən bu gün biz hər şeyin - informasiyadan başlamış hazır məhsul almağa qədər hər şeyin mümkün olduğu aralıq həyətə dönmüşük. Bəli, biz bütün maraqlı tərəflərlə əməkdaşlığa hazırıq, lakin hər bir dövlətdə onun həyatının elə sahələri var ki, ora çıxış son dərəcə məhduddur. Sadəcə ixrac-idxal əməliyyatlarını təhlil etmək kifayətdir ki, həm kommersiya, həm də dövlət struktrularının xarici iqtisadi fəaliyyətinə hökumət nəzarətinin olmadığına əmin olaq.

- Belə vəziyyətin səbəblərindən biri istəməmək deyil, bəlkə də sadəcə müsahibinin dəlillərinə qulaq asmaq bacarığının olmaması və son instansiyada öz nəzər nöqtəsini həqiqət kimi sırımaq istəyidir. Bu hərəkətlər dövlət hakimiyyəti strukturlarının qəbul etdikləri fərmanlar və qərarlar formasında milli iqtisadiyyatın əsas meyillərinin əksinə gedir, bəzən də bir-biri ilə ziddiyyət təşkil edirdi. Maliyyə-kredit və vergi siyasəti, qiymətəmələgəlmə, pul siyasəti məsələləri üzrə düşünülməmiş qərarlar ucbatından respublikanın iqtisadiyyatına xüsusilə ciddi zərbə vurulmuşdur. Belə əsaslandırılmamış, elmdən və günün reallıqlarından uzaq qərarlarla ölkəmizə vurulmuş ziyanı hesablamaq çətin deyil.

Əgər siyasi fəaliyyətdə nöqsanlar ictimayyətin böyük diqqətini cəlb edirsə, müqəssirləri aşkar etmək üçün deputat komissiyası yaradılır, tədqiqatlar aparılırsa, iqtisadiyyatın dağılması üçün məsuliyyət məsələsi nədənsə kənarda qalır. Zənnimcə, burada kütləvi informasiya vasitələrinin böyük təqsiri var.

- Azərbaycanda dərc edilən qəzetlərin fantastik miqdarı haqqında az deyilməyib. Lakin onlardan çox azı iqtisadi problemlərə ciddi düşüncəli yanaşma ilə seçilir. Qalan hallarda isə iqtisadi mövzuda (əgər belə məqalələr ümumiyyətlə olursa) məqalələr sensasiya ardıyca qaçaraq, bir anlıq xarakter daşıyır və bu gün də belə vəziyyət qalmaqdadır. Axı, bu yaxınlara qədər iqtisadi sahədə ən cüzi pozuntular ciddi təhqiqatlara səbəb olur, onlar barədə cildlərlə istintaq materialları yığılır, mətbuatda məqalələr dərc edilirdi. Mən hesab edirəm ki, belə səhvlərə gələcəkdə yol verməmək üçün mənəvi ziyan haqqında danışmayaraq, milli iqtisadiyyatımıza yüz milyardlarla manat zərər vurulmasına gətirib çıxaran siyasətə lazımi qiymət verilməməsi gələcək nəsillər qarşısında cinayət olar.

Azərbaycan xalqının bugünkü, xüsusilə son bir ildə faciəsi düşünülməmiş, reallıqdan uzaq olan, elmi əsası olmadan yeridilən dövlət siyasətinin nəticəsidir. **Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra iqtisadiyyatımızın qısa bir müddətdə çiçəklənməsi ilə bağlı çoxlu vədlər verildi. Həqiqətdə isə bir sistemin dağılması və yeni sistemin qurulmasını bəyan edən Xalq Cəbhəsinin reallığa uyğun gələn heç bir proqramı yox idi**.

Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik.

**İlham ƏLİYEV**

Milli iqtisadiyyatımıza böyük zərbə vuran eksperimentlərin tətbiqi adi bir hala çevrildi.

Vaxtilə SSRİ-nin tərkibindəki Azərbaycanda sənayenin mütərəqqi sahələrinin inkişafı, üzümçülük və şərabçılıq haqqında İttifaq hökuməti qərarlarının respublika üçün əhəmiyyətini niyə də lazımınca qiymətləndirməyək. Mən iqtisadçıyam və tam məsuliyyətlə bildirirəm ki, belə ciddi, dəqiq hazırlanan proqramların bundan sonra da həyata keçirilməsini görmək istərdim. Azərbaycanda regional siyasətin özülü qoyulmuş və həmin siyasət yeridilməyə başlamışdı...

**– Siz o vaxt yeridilən regional siyasətdən danışdınız, amma onun mexanizmi 1988-ci ildə Dağlıq Qarabağda nədənsə işə düşə bilmədi.**

– 1988-ci ildə erməni millətçilərin başladığı separatçılıq kampaniyasının lap əvvəlində onlar sübut kimi vilayətin Azərbaycanın regionlarından geri qalmasını irəli sürürdülər. Məhz Azərbaycanın müxtəlif hissələrinin xalq təsərrüfatı kompleksinin vəziyyəti haqqında dolğun məlumata malik olmağımız bizə rəqib tərəfin iddialarının əsassız və yalan olduğunu tamamilə ifşa etmək imkanı verdi. Mən və həmkarlarım müxtəlif səviyyələrdə keçirilən açıq müzakirələrdə sübut etdik ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində ucqar diyardan xalq təsərrüfatı kompleksimizin müasir sənayeyə, qabaqcıl kənd təsərrüfatına və müasir sosial infrastruktura malik olan yüksək inkişaf səviyyəli regionlardan birinə çevrilmişdir. «Bakinski raboçi» qəzetində (1988-ci il, mart) milliyətcə erməni olan tanınmış iqtisadçıların iştirakı ilə təşkil etdiyim «dəyirmi masa», yəqin ki, yadınızdadır. Sonra bu tədbir İttifaq mətbuatında geniş işıqlandırıldı. Orada biz vilayətin respublikanın digər rayonlarından nəinki geri qalmadığını, hətta bir sıra iqtisadi göstəricilərə görə onlardan qabağa getdiyini sübuta yetirən dəqiq göstəricilər dərc etdirdik. Təəssüf ki, o vaxtkı Sov. İKP MK Siyasi Bürosunun rəhbərləri başa düşmək istəmədilər ki, Qarabağın erməni icmasının ah-vayı və onun ehtiyaclarına respublika rəhbərliyinin etinasızlığından şikayətləri gözdən pərdə asmaq üçündür. Əsl mətləb isə torpağımıza qan və qada gətirən millətlərarası kin-küdurət mexanizmini işə salmaqdır.


«ИГТИСАДИЈЈАТЫ БЕЛӘ ИДАРӘ ЕТМӘЗЛӘР»
Мусаһибимиз академик Зијад Сәмәдзадәдир

Bir neçə nəslin səyləri nəticəsində əldə edilmiş inkişaf səviyyəsi buna real sübutdur.

Əvvəllər yaradılan, Azərbaycanın bütün sənayesinin fəxri olan unikal istehsal obyektlərindən çox da səmərəli istifadə olunmur, ən zəruri sahə və istehsalatlar işini dayandırır, maddi istehsala maraq azalır, əmək məhsuldardığının aşağı düşməsi prosesi gedir. Maliyyə-kredit sistemi dağılmış, əslində nəzarətdən çıxmış, sənaye sərmayəsi ilə maliyyə sərmayəsinin bir-birindən ayrı düşməsi, ara verməyən inflasiya prosesləri, qiymətlərin sürətlə artması, bank strukturlarının, bir sözlə, bütün maliyyə-kredit sisteminin işinin pozulması ağır nəticələrə gətirib çıxarmışdır. Bu gün sistemli təhlil aparmadan da tam məsuliyyətlə deyə bilərəm ki, həmin sahədə buraxılmış çox kobud və bağışlanmaz səhvlər dövlətçiliyimizə, iqtisadiyyatımıza sarsıdıcı zərbə vurmuşdur.

Elmi-texniki sahədəki vəziyyətdən danışmaq belə istəməzdim. Çünki burada baş verən hadisələr qorxunc yuxuya oxşayır. Neçə-neçə perspektivli iş, necə deyərlər, heç həyata göz açmadan puç edilmiş, Azərbaycanın intellektual potensialına ciddi zərbə vurulmuşdur. Respublika elminin qaymağı, onun gələcəyi olan, lakin doğma yurdda bacarıqlarını tətbiq edə bilməyən adamların ölkədən çıxıb getməsi kütləvi hal almışdır.

**– Siz Azərbaycanın maliyyə-kredit sistemi ilə bağlı bəzi məsələlərə toxundunuz. 1961-1992-ci illərin pul nişanlarını dəyişdirmək haqqında Rusiya Mərkəzi Bankı qərarının respublikada yeridilən pul siyasətinə təsiri barədə nə deyə bilərsiniz?**

– Hər şeydən əvvəl, qeyd etmək istəyirəm ki, belə tədbir şok terapiyasının ayrılmaz ünsürüdür. Bu da respublikamızın sosial-iqtisadi həyatına öz mənfi təsirini göstərdi. Respublikada pul siyasətinin hazırlanması və tətbiqində iqtisadiyyatımıza, xalqımıza çox baha başa gələn kobud səhvlər buraxılmışdır. Rublların dəyişdirilməsi prosesində əhalidə olan əskinasların məbləği barədə məlumata malik olmaması Milli Bankın pul tədavülünü tənzimləmək qabiliyyətinə malik olmamasını əyani olaraq sübut etdi. Mən hələ bu gün qəbul edilib sabah isə fəaliyyəti dayandırılan fərman və sərəncamların mənfi nəticələrini demirəm.

Ərazisində müharibə gedən, sosial-iqtisadi problemlərin son dərəcə kəskinləşdiyi bir dövlətdə iqtisadi problemlərə, idarəetməyə sistemsiz, ikinci dərəcəli münasibət, təbii ki, müsbət nəticələr verə bilməzdi.

Bu da bir inkaredilməz faktdır ki, cəmiyyətin inkişaf qanunlarını başa düşməyən, iqtisadiyyatdan tamamilə uzaq olan, amma onu idarə etmək hüququna yiyələnən adamların qəfil, düşünülməmiş hərəkətləri nəticəsində Azərbaycanın xalq təsərrüfatı on illərlə geri atıldı.

Elçibəy hakimiyyətinin təkcə bir ili ərzindəki tədbirlərin iqtisadiyyatımıza böyük zərəri barədə onlarca konkret misal gətirə bilərəm. Bu misallar əsasında iqtisadiyyata rəhbərlikdə nə etməmək dərsliyi yaratmaq olar. Hamıya yaxşı bəllidir ki, Ə.Elçibəy aparatının bölmələri sırf Xalq Cəbhəsinin ideologiya və konsepsiyasını əsas tutur və bu «strategiya»ya uyğun gəlməyən nə varsa, hamısını kənara atırdı.

**– Ziyad müəllim, Siz öz fikirlərinizi əsaslandıraraq, iqtisadiyyatımızdakı qüsur və səhvlərdən ətraflı danışırsınız. Yeri gəlmişkən, bu sualı verməyə məcburam. Bəs, Siz özünüz necə fəaliyyət göstərirdiniz? Axı, həmin vaxtlarda yüksək vəzifələrdə çalışırdınız...**

– Düzdür, uzun müddət MK-nın iqtisadiyyat şöbəsinə başçılıq etmişəm, bir neçə ay parlamentdə işləmişəm, sonra çox qısa müddət ərzində respublikanın Dövlət İqtisad Plan Komitəsinə rəhbərlik etmişəm. Biz işləyirdik. Nöqsanlarımız da olub, bunu inkar etmirəm. Lakin heç olmasa, respublika və ya sahə miqyaslı bir iqtisadi məsələ göstərin ki, onun həlli xalqın mənafeyinə zidd nəticə versin!

**– Ziyad müəllim, planlı təsərrüfat və inzibati amirlik sistemi üçün darıxmırsınız?**

– Qətiyyən yox. Sadəcə olaraq möhkəm əqidədəyəm ki, iqtisadiyyata bütün Qərb ölkələrinin də lazım bildiyi ağıllı dövlət nəzarəti olmasa, iqtisadiyyatda tərəqqi yaranmaz. Bu, keçid mərhələsində xüsusilə vacibdir. Ötən onilliklərdə qurduqlarımızın hamısı kor-koranə inkar edilməməlidir. Yenə deyirəm, düzdür, səhvlər də, mərkəzin amirliyi də, istər iqtisadi, istərsə də sosial sahələrdə sapmalar da olub. Amma nailiyyətləri unutmağa haqqımız yoxdur.

**– Ziyad müəllim, Siz iqtisadiyyatda hərc-mərclik və dağıntılardan çıxmağın elə bir mənzərəsini göstərdiniz ki, orada tam qaranlıqdır, işıq ucu yoxdur.**

– Açığını deyim ki, qarşılaşdığımız vəziyyət nikbinlik üçün az-çox əsas vermir. Azərbaycandakı problemlər Qarabağ müharibəsi fonunda elə bir düyünə düşmüşdür ki, onu bir zərbə il kəsib açmaq müşkül işdir. Hamıya məlum həqiqətdir ki, tikmək söküb-dağıtmaqdan çətindir. Azərbaycan bütövlükdə dövlətin və o cümlədən iqtisadiyyatın ağılsız idarə edilməsi ucbatından iqtisadi islahatların başlanğıcında keçmiş İttifaqın bir çox respublikalarından xeyli geri qalmış və dünya iqtisadi birliyinə inteqrasiyada vaxt etibarilə çox geçikmişdir.

**– Vəziyyətdən çıxış yolu kimi, konsepsiyalara ehtiyac varmı?**

– Ölkənin ən kəskin iqtisadi böhrandan çıxarılması konsepsiyasının və ya proqramının hazırlanması bir adamın işi deyil. Ona görə diqqəti belə bir cəhətə cəlb etmək istərdim ki, son vaxtlar Azərbaycanda «iqtisadi islahatın atası» adlanmaq iddiasında olanların sayı artmışdır və onların böyük əksəriyyəti dərindən düşünülmüş islahat konsepsiyası əvəzinə müxtəlif ölkələrin mahiyyətcə müxtəlif olan iqtisadi islahat proqramlarından «bir az ordan, bir az burdan» prinsipi ilə yığılan qırıq, epizodik müddəalar təklif edir.

Azərbaycanın iqtisadiyyatı ağır, üzücü müharibə aparmağa məcbur olan bir ölkənin iqtisadiyyatıdırmı? Müharibənin sərt tələbləri baxımından xalq təsərrüfatımızı, bütövlükdə fəaliyyətimizi qiymətləndirməyə cəhd edilibmi? Təəssüf ki, yox! Öz ərazisində təcavüzkara qarşı müharibə aparan ölkə üçün bazar münasibətlərinə keçidin, xalq təsərrüfatını bərpa etməyin xüsusi modelinin işlənib hazırlanması zəruridir. Belə hesab edirəm ki, bütün maliyyə-kredit, pul, vergi siyasətinə yenidən baxılmalı, xarici iqtisadi fəaliyyətin üstün istiqamətləri müəyyənləşdirilməli, xalqın mənafeyi nəzərə alınmaqla xarici kapitalın Azərbaycana cəlb edilməsi mexanizmi yaradılmalıdır. Nə qədər çətin olsa da, əhalinin sosial müdafiəsinin səmərəli sistemi bu işlərin hamısının mərkəzində durmalıdır.

Bu vəzifənin öhdəsindən yalnız elliklə gəlmək olar və bu prosesi dövlət idarə etməlidir. Hesab edirəm ki, bu nəhəng işi praktikada həyata keçirmək üçün bizə lazım olan ən mühüm şərtlərdən biri bu ağır illərdə öz qüvvəmizə çatışmayan əminlik qazanmaqdır. Azərbaycan xalqı özünün çoxəsrlik tarixində qlobal xarakterli çətinliklərlə dəfələrlə qarşılaşmışdır. Bu gün Azərbaycan Respublikası adlanan ölkədə yaşamağımız göstərir ki, əvvəlki nəsillər sınaqlardan şərəflə çıxa bilmişlər. Ümid edirəm ki, bugünkü nəsil də necə olursa-olsun, Azərbaycan tarixinin bizim sizinlə yaşadığımız bu böhranlı mərhələsindən üzü ağ çıxacaqdır.

**«Azərbaycan» qəzeti,**
**28 sentyabr 1993-cü il**

# İnsan kapitalının inkişafı və təhsil problemləri



*Müsahibimiz təhsil eksperti dos. İlham Əhmədovdur.*

***- "İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması" mövzusuna həsr olunmuş Ümumdünya Sərgisinin ("Expo-2025") Azərbaycanda keçirilməsinə dair ölkəmizin təşəbbüsünü necə qiymətləndirirsiniz? Bu tədbirin Bakıda keçirilməsi təşəbbüsü müsbət həll edilərsə, "Expo-2025" strateji baxımdan Azərbaycana nə verə bilər?***

- Bu, çox gözəl təşəbbüsdur, belə bir tədbirin ölkəmizdə keçirilməsinə beynəlxalq səviyyədə dəstək verilməsi çox yaxşı olardı. Bu halda tədbirə, çox ehtimal ki, nüfuzlu alimlər, dünyanın tanınmış universitetlərinin və şirkətlərinin nümayəndələri, insan resurslarının idrəedilməsi sahəsində yüksək səviyyəli menecerlər (TOP menecerlər) qatılacaqlar. Belə bir tədbirin ölkəmizdə keçirilməsi üçün, yəqin ki, kompleks hazırlıq tədbirlərinə də ehtiyac olacaq: həm təşkilati hazırlıq, həm də ölkəmizdə təhsilin və elmin səviyyəsini qarşıdakı 7 ildə elə bir səviyyəyə çatdırmalıyıq ki, qonaqlarla öz müsbət təcrübəmizi bölüşə bilək, onlara insan kapitalının inkişafı sahəsində maraqlı innovasiyalar təqdim edə bilək. Belə müsbət təcrübə 1-2 universitetdə və ya 1-2 məktəbdə yox, təhsil müəssisələrimizin əksəriyyətində mövcud olmalıdır, çünki "tək əldən səs çıxmaz".

İnsan kapitalının inkişafı mövzusu ölkəmiz üçün yeni deyil. Xatırlayırsınızsa, hələ 2003-cü ildə, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev ilk dəfə prezident seçildikdən az sonra Cenevrədə "İnformasiya cəmiyyəti quruculuğu üzrə ümumdünya sammiti"ndə iştirak etdi və orada maraqlı məruzə etdi. Bu məruzədə cənab prezident qeyd etdi ki, «…uşaqlarımız bilikli olmalı, dünyada gedən prosesləri izləməli, yeni texnologiyalara sahib çıxmalıdır. …İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olmasına, tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik». Sonrakı dövrlərdə hər zaman insan kapitalının inkişafı məsələləri ölkəmizdə gündəmdə olmuşdur. Görünür gözlənilən qərarın qəbul edilməsində bu amillər nəzərə alınacaqdır.

Bu gün Azərbaycan Respublikası qarşısında duran strateji vəzifə sosial-iqtisadi həyatın modernləşdirilməsi, beynəlxalq təcrübə və elmi innovasiyaların sosial-iqtisadi həyatda uğurlu tətbiqidir. Bu məsələlərin həlli məhz insan kapitalının inkişafını, insanların müasir bilik və bacarıqlara yiyələnməsini tələb edir. Bu səbəblərdən son 15 ildə ölkəmizin əsas hədəfi insan kapitalının inkişafıdır. Çünki, müasir dövrdə dövlətlərin inkişaf səviyyəsi insan kapitalının səviyyəsi ilə müəyyən edilir. Təsadüfi deyil ki, BMT-nin «Minilliyin inkişaf məqsədləri» proqramında davamlı inkişafın təmin edilməsi üçün müəyyən edilmiş 8 prioritet məqsədin əksəriyyəti insan kapitalının inkişafı ilə bağlıdır.

Ölkəmizdə reallaşan bir çox strateji sənədlərdə, o cümlədən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritələri" kimi strateji sənədlərin hər birində insan kapitalının inkişafı, təhsilin inkişafı prioritetlik təşkil edir. Bu konseptual sənədlərin məqsədi ölkədə insan kapitalının inkişafı ilə iqtisadiyyatın dayanıqlı inkişafını təmin etmək, əhalinin sosial rifahını yüksəltmək, bütün istiqamətlərdə tərəqqini sürətləndirmək, inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaqdır. İnsan kapitalının inkişafı təhsilin əsas hədəflərindəndir.

Azərbaycan Respublikası insan kapitalının inkişaf etdirilməsini təhsil siyasətinin əsas qayəsi hesab etməklə yanaşı, digər imkanlardan da faydalanmağa çalışır. Qeyd etdiyimiz kimi, Azərbaycan "İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması" mövzusuna həsr olunmuş Ümumdünya Sərgisinin ("Expo-2025") Azərbaycanda keçirilməsi ilə bağlı təklifini irəli sürərək, növbəti vacib bir kampaniyaya imza atdı. Təklif olunan mövzunun əsas hədəfi "biz insanları – dünyada ən güclü resurs olan insan kapitalını universal müzakirəyə çıxaracağıq" devizidir. Bu baxımdan "İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması" mövzusuna həsr olunmuş Ümumdünya Sərgisinin ("Expo-2025") Azərbaycanda keçirilməsi son 15 ildə bu sahədə görülən işlərin təbii davamı kimi qəbul edilə bilər. Bu məsələ ilə əlaqədar Paris şəhərində keçirilən tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva qeyd edirdi: " "İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması" mövzusu həqiqətən hamını narahat edən bir məsələdir. Bu mövzu dövrümüzün əsas çağırışını – texnologiyanın və artan bağlılığın bəşəriyyətə təsirini əhatə edir. "Bakı Expo 2025" sərgisində düşünürük ki, texnologiyadan daha uzağa baxmaq, diqqətimizi rəhbərlərdən sıravi vətəndaşlara yönəldərək iqtisadiyyatların, cəmiyyətlərin və yaradıcılığın aparıcı qüvvəsi olan insanlar üzərində cəmləşdirmək mühüm əhəmiyyət kəsb edəcək. Biz insanları – dünyada ən güclü resurs olan insan kapitalını universal müzakirəyə çıxaracağıq".

Mətbuatın verdiyi məlumata görə artıq Maliyyə Nazirliyi bu tədbirin keçirilməsinə hazırlıq üçün 7 illik təxmini büdcəni də hesablayıb - 765 milyon avro məbləğində qiymətləndirilir.

Təbii ki, reallaşması nəzərdə tutulan bu strateji məsələlər ölkəmizdə insan kapitalının inkişafına verilən diqqətin təzahürüdür. İnsan kapitalının inkişafı daha çox təhsil sektorunun üzərinə düşür. Bu mənada bir daha təkrar etmək istəyirəm ki, belə bir tədbirin ölkəmizdə keçirilməsinə cəhd edilməsi təqdirəlayiq hadisədir. Qərar müsbət olarsa, hesab edirəm ki, bu təbdirə qədərki dövrdə ölkəmizdə insan kapitalının inkişafı və təhsil problemlərinə daha da çox diqqət yetiriləcək, daha çox konkret işlər görüləcəkdir. Bu sahədə problemlərimiz isə hələ də var.

***- Ölkədə təhsilin durumu, təhsil islahatlarının vəziyyəti barədə fikrinizi bilmək istərdik.***

- Müsair təhsil çox mürəkkəb və çox dinamik bir sistemdir. Bir tərəfdən təhsil çox ətalətlidir (kütləsi, əhatə dairəsi böyük olduğundan ətaləti də böyükdür), digər tərəfdən dünyanın indiki intensiv inkişaf tempinə uyğun olaraq təhsil dinamik inkişaf etməlidir. Belə bir deyim var: bu gün təhsilin vəziyyəti necədirsə, gələcəkdə ölkənin durumu elə olacaqdır. Bu səbəbdən təhsil bu gün bütün ölkələr üçün prioritet sahədir, bu sahədə aparılan islahatlarda naşılıq etmək təhsil sistemini, ardınca isə ölkənin bütün digər sahələrini çox geri ata bilər. Təhsil, sözün həqiqi mənasında, fasiləsiz xarakter alıb, Hz. Peyğəmbərimiz söylədiyi kimi, bu günün təhsili beşikdən qəbir evinə qədər davam etməlidir.

Müasir təhsil fasiləsiz olduğu kimi təhsil islahatları da fasiləsiz olmalıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, "...təhsil sahəsi daim islahat tələb edən sahədir." Bu gün inkişaf səviyyəsindən asılı olmayaraq, bütün ölkələrdə təhsil islahatları həyata keçirilir, bütün ölkələr daha mükəmməl təhsil sistemi qurmaq haqqında düşünürlər. Çünki bugünkü təhsil müasir innovasiya cəmiyyətinin texnologiya tələblərinə və gənc nəslin tələblərinə cavab vermir, müasir təhsil yeni rəqəmsal zamanın yaradıcı insanını yetirməkdə acizdir. Bill Qeyts 10 il əvvəl deyirdi ki, vaxt gələcək universitetlər İnternetlə rəqabətə girə bilməyəcəklər. Həmin dövr yetişib artıq.

Amma keçid dövrünü yaşayan ölkələrdəki təhsil problemləri inkişaf etmiş ölkələrdəki təhsil problemlərindən tam fərqlənir. Bunun bir çox səbəbi var. Əsas səbəb bu ölkələrdəki insan kapitalının və təhsilə qoyulan investisiyaların az olmasıdır. Amma əslində ən böyük investisiya imkanı məhz təhsil sistemindədir. Bu sektora qoyulan hər bir dollar on qat geri qayıdır. Təhsilə qoyulan investisiya təkcə universitetlərin təmiri, yeni məktəblərin tikintisi demək deyil. Bunların təhsilin inkişafına real təsiri azdır. Təhsilə qoyulan əsas investisiya insan resurslarına, texnologiyalara, təhsildə İT-nin tətbiqi və yeni innovasiyaların yaradılmasına, elm-təhsil-innovasiya -istehsalat (biznes) əlaqələrinin inkişafına xidmət etməlidir. Bu gün heç bir tədris korpusu olmayan və milyonlarla tələbəsi olan meqauniversitetlər var. Bu universitetlər dünyanın müxtəlif universitetlərindən tələbələr cəlb edərək milliyard dollarlarla pul qazanırlar. Çünki bu universitetlərə vaxtında kifayət qədər maliyyə yatırılıb və sözün həqiqi mənasında, müasir təhsili mükəmməl bilən insan resursları bu universitetlərin yaradılması və idarəedilməsi proseslərinə cəlb edilib.

Son 20 il ərzində ölkəmizdə təhsil sahəsində aparılan islahatlara ötəri nəzər salanda görünür ki, müasir dövrün təhsil sistemi qarşısında qoyduğu məsələlərə hələ kifayət qədər nail ola bilməmişik. Xüsusən də, yeni kurikuluma keçid prosesi və prosesin ilkin nəticələri narahatlıq doğurur. Bu prosesləri belə dəyərləndirmək olar: "Yaxşı ideyanın pis icrası". Ali təhsil sahəsindəki islahatlarda da problemlər az deyil.

Təhsildəki problemlər kompleks xarakterlidir (maliyyə, idarəetmə, kadr, elmi-metodik və texniki-texnoloji təminat və s.). Təhsilə məsul qurumlar çox vaxt ekspertlərin verdiyi təklifləri müzakirə etmək, çıxış yolunu birgə tapmaq əvəzinə, özlərini görməzliyə vururlar, sanki hər şey öz qaydasındadır, amma vaxtında reaksiya verilərdisə, islahatlara müəyyən zəruri korreksiyalar edilərdisə, vəziyyəti qismən yaxşılaşdırmaq mümkün olardı.

***- Xeyli vaxtdır ki, məktəblərimizdə kurikulum sistemi tətbiq edilir. Bu sistem özünü doğrultdumu?***

- Əslində köhnə təhsil standartlarını müəyyən qədər təkmilləşdirib, müasirləşdirib istifadə etmək olardı. Çünki pedaqoji ictimaiyyət həmin standartlarla tanış idi, müəyyən iş təcrübəsi toplanmışdı. Amma daha geniş formatda dəyişiklik etmək qərarına gəlindi. Təəssüf ki, bu dəyişiklik prosesi öncəsi lazımi hazırlıq işləri aparılmadı, layihələnmədə, strateji və taktiki məsələlərdə səhvlərə yol verildi. Mövcud resurslardan (ilk növbədə insan resurslarından, əvvəlki illərdə toplanmış təcrübələrdən) kifayət qədər dolğun istifadə edilmədi.

Artıq 10 ildən çoxdur ki, məktəblər yeni kurikulumlarla işləyirlər və bu yöndə xeyli nöqsanlar özünü büruzə verir (standart və dərsliklərin keyfiyyəti, müəllimlərin bu prosesə hazırlığı və s.). Təhsil ictimaiyyəti kurikulum islahatını heç də yüksək qiymətləndirməyib. Digər bir problem isə yeni kurikulumun pedaqogikasının, müvafiq fənn metodikalarının kifayət qədər işlənilməməsidir. Məlumdur ki, hər bir fənnin özünün tədris metodikası var. Kurikulum əsasında tədris aparmaq üçün isə metodikalar hələ tam formalaşmayıb. Pedaqoji universitetlərdə gələcək müəllimlərə ayrı-ayrı fənlərin tədrisi metodikası kursları əsasən köhnə təhsil standartları və texnologiyalarına əsaslanır. Kurikulum islahatı pedaqoji təhsillə koordinasiya edilməyib.

Hər bir islahat kimi təhsil islahatı da insanların (pedaqoji ictimaiyyətin) bu prosesə ciddi hazırlanmasını tələb edir. Bütün dünyada müəllimlərin ixtisasartırma və təkmilləşdirmə sistemi onlayn rejimdə təşkil edildiyi halda, bizdə məktəb müəllimləri üçün nəinki müasir, heç arxaik də ixtisasartırma və təkmilləşdirmə sistemi yoxdur, necə deyərlər, köhnəsi ləğv edilib, əvəzinə adekvat yeni bir sistem yaradıla bilməyib. Universitet müəllimlərinin ixtisasartırma və təkmilləşdirmə sistemi daha bərbad vəziyyətdədir. Belə şəraitdə müəllimləri necə maarifləndirmək, yeni biliklər vermək, islahat prosesinə fəal cəlb etmək olar? Kurikulum islahatının büdrəməsinin səbəblərindən biri də budur.



***- Kurikulumu Azərbaycanın milli təhsil konsepsiyası kimi də təqdim edirlər, bu konsepsiya təhsilə nə verdi ?***

- Bildiyiniz kimi, orta təhsil təhsilin fundamentidir, bu fundament zəif olarsa, ali təhsil sistemi, ümumən insan kapitalı inkişaf edə bilməz. Bu yaxınlarda 9-cu siniflərin imtahanları oldu. İmtahan nəticələri narahatlıq üçün ciddi əsas verir. Bu nəticələr uzun bir prosesin indikatorudur. Yəni, kurikulum sisteminin tətbiqində istənilən nəticələri əldə edə bilməmişik. Burada müəyyən boşluqlar mövcuddur. Artıq kurikulum sistemi ilə təhsil alan şagirdlər 2019-cu ildə universitetlərə qəbul imtahanları verəcəklər. Çox az vaxt qalıb imtahanlara. Valideynləri, şagirdləri və məktəbi narahat edən məsələ budur: məktəbin verdiyi biliklərlə şagirdlər imtahanlarda yüksək nəticə əldə edə biləcəklərmi, yoxsa yenə repetitor yanına getməyə ehtiyac var?

Bilirsinizmi, repetitorların əksəriyyəti uzun illərdir bu işlə məşğuldurlar və onların əksəriyyəti ənənə üzrə köhnə standartlarla işləyirlər. Köhnə standartlar və proqramlar fənyönümlü, elmyönümlüdür. Yeni kurikulum isə şəxsiyyətyönümlüdür. Repetitorların əksəriyyəti yeni kurikuluma yaxşı bələd deyillər. Digər tərəfdən qəbul imtahanlarına düşəcək tapşırıqların formatı da müəllimlərə hələ tam aydın deyil. Burada müəyyən problemlər yarana bilər. 2019-cu ildə qəbul imtahanlarında abituriyentlərin nəticələri əvvəlki illərlə müqayisədə xeyli zəif ola bilər. Əgər əvvəlki illərdə qəbul imtahanlarından sonra universitetlərdə 5000-6000 boş yer qalırdısa, 2019-cu ildə ola bilsin ki, yeni sistemlə imtahan zamanı yerlərin 50%-i boş qalsın. Bu mənada kurikulum milli təhsil konsepsiyası kimi, təhsilin məzmununu müəyyən edən əsas sənəd kimi uğurlu olmadı.

***- Yeni kurikulumla təhsil almış şagirdlərin universitet təhsili nə dərəcədə "rahat" olacaq, onlar universitetlərdə "özlərini necə hiss edəcəklər" ?***

- Tələbə adını qazanan şanslı abituriyentlər universitetlərdə əvvəlki illərin tələbələrinin öyrəndikləri təhsil standartları ilə təlim keçəcəklər. Bu ali məktəb standartları əsasən orta məktəbin fənyönümlü, elmyönümlü təhsil standartları üzərində qurulub. Orta məktəbi bitirən şagirdlər qeyd etdiyimiz kimi, şəxsiyyətyönümlü proqramlarla təhsil almışlar, ali məktəb proqramları isə fənyönümlüdür, yəni köhnə məzmuna əsaslanır. Bu vəziyyət yeni kurikulumla oxuyan tələbələr üçün, təbii ki, çətinlik yaradacaqdır. Bu halda orta məktəblə ali məktəb arasında varislik itə bilər. Universitetlərdə bu varisliyi təmin etmək üçün yeni məktəb proqramlarına əsaslanan, onun məntiqi davamı olan məzmun islahatı aparılmalıdır. Düzdür, əvvəllər də bu iki təhsil pilləsi arasında müəyyən boşluq olub, lakin boşluq zəif hiss edilib, universitetlər bu boşluğu doldurmağa çalışıblar. Amma indi bu boşluq vakum halında, daha böyük həcmdə ola bilər.

Bu gün universitet proqramları şəxsiyyətyönümlü deyillər, bu amil yeni nəsil tələbələr (yeni kurikulum əsasında təhsili alan) üçün təlimdə çətinlik yarada bilər. Məsələn, bir çox mövzular var ki, məktəbdə öyrədilməyib, amma univesitet poqramları nəzərdə tutur ki, tələbələr bu biliklərə sahibdirlər. Nəticədə, tələbələr ali məktəbdə müəyyən fənləri mənimsəyə bilməyəcək, sessiya imtahanlarında kütləvi kəsiləcəklər, kredit borcları artacaq. Beləliklə də, tələbələr vaxtında dövlət imtahanında iştirak edə bilməyəcək və diplomlarını xeyli gec alacaqlar, tələbələrdə narazılıq yaranacaq. Bu mənada görünür ki, yeni kurikulumla təhsil almış şagirdlər tələbə kimi universitetlərdə hələ bir neçə il "özlərini narahat hiss edəcəklər".

Çox ehtimal ki, gələcəkdə universitetlər təhsil standartlarını şəxsiyyətyönümlü məzmuna gətirməli olacaqlar. Bu halda universitetlər köhnə standartları tətbiq etməklə paralel, yeni təhsil standartları üzərində işləməli, onu sınaqdan çıxarmalı, sonda yeni standartlara keçməlidirlər. Bu keçid bir neçə il çəkə bilər. Yəni, öyrətmə və yeni standartların yaradılması, təkmilləşməsi, dəyişilmə və sınaq proseslərinin eyni zamanda aparılması ehtiyacı yarana bilər, bu da ki, çox çətinliklər yaradacaq.

***- Biz dünyanın qabaqcıl təhsil sistemindən faydalanıb, Azərbaycanın özünəməxsus təhsil sistemini formalaşdırsaq doğru olmazmı?***

- Bilirsiniz, biz qloballaşma dövründə yaşayırıq, əmək bazarı, peşə standartları, keyfiyyət standartları, elm, təhsil, texnika, texnologiya, bir sözlə, artıq hər bir xidmət, məhsul qlobal xarakter daşıyır, bu tələbləri nəzərə almadan milli xarakterli nə isə yaratmaq çətindir ( bəlkə də mənasızdır). İstənilən fəaliyyət sahəsində əvvəlcə bu standartları tam mənimsəyib, 100% səviyyəsində tətbiq edə biləriksə, deməli, qlobal səviyyədə işləməyə qadirik. Yalnız bundan sonra bu nailiyyətlərin əsasında daha mükəmməl, bütün dünyanın diqqətini cəlb edə bilən, nə isə innovasion və milli xarakterli bir iş etmək olar. Əks halda bunun nəticəsi dünya standartından zəif, diqqəti cəlb etməyən bir iş olar. Məsələn, musiqi sahəsində Ü.Hacıbəyov, F.Əmirov və ya V. Mustafazadə milli nə isə yaratmaq üçün əvvəl dünya təcrübəsini yaxşı öyrənmiş, sonda milli ilə bəşərini əlaqələndirmiş, bu əsasda milli kökə əsaslanan əsərlər yarada bilmiş və dünya musiqi tarixində iz qoymuşlar. Eynilə də digər sahələrdə tanınmış soydaşlarımız qlobal səviyyədən baxıb dəyərli milli irs yarada bilmişlər. Necə deyərlər, qlobal düşünüb, lokal hərəkət etmək lazımdır. Təhsil sistemi də belədir.

Aşağı səviyyə və az investisiya ilə özünəməxsus, orijinal nə isə yaratmaq mümkün deyil. Buna bəlkə də onilliklər lazımdır, hər halda son 25 ildə bunu edə bilmədik, əksinə elm və təhsildə olanların da müəyyən qismini, təəssüf ki, itirdik. Məsələn, kurikulum sistemini və ya Boloniya prosesini 10 ildir tətbiq edirik, amma hələ də qlobal tələblərdən çox uzağıq, mükəmməli yaratmaq istəyi ilə yaxşını pislə əvəzlədik. Qlobal tələblər səviyyəsinə çatdıqdan (və ya yaxınlaşdıqdan), onların təcrübəsini öyrəndikdən sonra milli, özünəməxsus təhsil sistemi qura bilərik. Əks halda yaratdığımız perspektivsiz təhsil sistemi olacaq, dünya təhsil məkanına inteqrasiya etməyəcək. Yaxın gələcəkdə (təxminən 10 ildə) biz təhsil sahəsində qlobal tələbləri heç olmasa 70% səviyyəsində icra etməyə çalışmalıyıq, dünyanın TOP-1000 universitetləri sırasında 2-3 universitetlə təmsil olunmalıyıq. Sonrakı mərhələdə isə tədricən əldə etdiyimiz nailiyyətləri təkmilləşdirərək, inkişaf etdirərək, daha çox investisiya yatıraraq dünya standartlarına daha yaxın ola bilərik. Büdcəsi milyardlarla dollar olan universitetlə büdcəsi 10 milyon $ olan milli universitetlərimiz və ya maaşı 10000 $ olan alimlə maaşı 300-400$ olan alimimiz eyni nəticə verə bilərdimi (TOP-100 universitetdə işləyən tanınmış professorları bizim universitetlərə dəvət edib 400$ maaşla işlətsək, nə qədər məhuldar olardılar görəsən)? Təəssüf ki, AMEA-nın da büdcəsi bu gün müasir elmi tədqiqatlar aparmaqdan çox uzaqdır. Bu mənada təhsil və elm sahəsində hələ görüləsi işlərimiz çoxdur. Bəzən mütəxəssislər gileylənirlər ki, bizdə elmə qoyulan vəsait geri qayıtmır. Əgər ağaca gündə 5 litr su verilməli ikən 1 litr su verilərsə, bu ağac bar verərmi, xüsusən də əgər bu ağac 25 il belə suvarılıbsa?

Ölkə Prezidenti cənab İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, xalqımız istedadlı xalqdır, inanırıq ki, elm-təhsil sahəsində də ölkəmiz inkişaf edərək, dünya səviyyəsinə yaxınlaşacaq, elm və təhsil sahəsində çoxsaylı innovasiyalarla qlobal səviyyədə nailiyyətlərə imza atacaqdır. Düşünürəm ki, "İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması" mövzusuna həsr olunmuş Ümumdünya Sərgisinin ("Expo-2025") Azərbaycanda keçirilməsi təşəbbüsü öz müsbət həllini taparsa, bu tədbirə həm hazırlıq mərhələsində, həm də sərgidən sonra (əldə edilən təcrübə və məlumatlar, yeni əməkdaşlıq əlaqələrinin yaradılması) ölkəmizdə elmin, təhsilin və insan kapitalının inkişafına yeni təkan verə bilər. Buna ölkəmizin ehtiyacı var, çünki qeyri neft sektorunun inkişafı insan kapitalının səviyyəsindən çox asılıdır.

# Fətəli xan Xoyski

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

Azərbaycan Xalq Cümhuriyyəti hökumətini quranlardan biri Fətəli xan Xoyski olmuşdur. İlk hökumətdə o Nazirlər Şurasının sədri və daxili işlər naziri vəzifələrini icra etmişdir. XOYSKİ Fətəli xan İsgəndər xan oğlu (25.11.1875, Şəki -19.6.1920, Tiflis) - Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Əslən Cənubi Azərbaycanın Xoy şəhərindən olan Şəki xanı Cəfərqulu xanın nəslindən olan general-leytenant İsgəndər xan Xoyskinin oğludur. Fətəli xan Xoyski 1907-ci ildə Gəncə quberniyasından 2-ci Dövlət dumasına deputat seçilmişdir.

Fətəli xan Xoyski 1913-cü ildə Bakıya köçmüşdür. Rusiyada Fevral inqilabından (1917) sonra Bakıda yaradılmış Müsəlman Milli Şurası müvəqqəti icraiyyə komitəsinin üzvü seçilən Fətəli xan Xoyski həmin ilin aprelində Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayının təşkilatçılarından və fəal iştirakçılarından olmuşdur.

1917-ci ilin oktyabrında Bakı Şəhər Dumasına seçkilərdə müsəlman bloku 10 mindən çox səs almış və bu bloku təmsil edən Fətəli xan Xoyski dumanın sədri seçilmişdi. Onun rəhbərliyi ilə fəaliyyət göstərən Bakı Şəhər Duması o dövrdə bolşevik Bakı Sovetinin yeganə rəqibi idi. 1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın qanunvericilik orqanı olan Zaqafqaziya seymi işə başladı. Seymə Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatlar daxil idi. Seymin Müsəlman fraksiyasına mənsub 44 deputatın arasında Fətəli xan Xoyski də vardı. 1918-ci ilin aprelində elan olunan müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətində Xoyski xalq maarifı naziri vəzifəsini tutdu. Məhz bu vəzifədə olarkən Fətəli xan Xoyski Tiflisdə yaradılması qərarlaşdırılmış Avropa tipli universitetin Bakıda açılması təklifini irəli sürdü və sonralar bu işin həyata keçirilməsində mühüm rol oynadı. Mayın 27-də Seymin azərbaycanlı deputatları fövqəladə iclas keçirərək, özlərini Azərbaycan Milli Şurası elan etdilər. Azərbaycanın idarəsini öz üzərinə götürən Milli Şura mayın 28-də keçmiş Qafqaz canişininin iqamətgahında keçirilən birinci iclasında, ətraflı müzakirələrdən sonra Cənubi Qafqazın cənub-şərqində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və İstiqlal bəyannaməsinin qəbul olunması haqqında qərar qəbul etdi. Azərbaycan Milli Şurasının üzvü Fətəli xan Xoyski yekdilliklə Azərbaycan hökumətinin sədri seçildi və ona Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətini təşkil etmək tapşırıldı. Xoyski elə həmin andaca öz hökumətinin tərkibini elan etdi. Bu hökumətdə Fətəli xan baş nazir (rəisi-vüzəra) vəzifəsi ilə yanaşı, daxili işlər naziri vəzifəsini də tuturdu.



Azərbaycan Milli Şurası 1918-ci il 17 iyun tarixli iclasında özünün buraxılması, bütün qanunvericilik və icra hakimiyyətinin Azərbaycan müvəqqəti hökumətinin əlində cəmləşdirilməsi haqqında iki mühüm qətnamə qəbul etdi.

Fətəli xan Xoyskinin ikinci hökuməti Gəncədə çox çətin və mürəkkəb bir dövrdə fəaliyyətə başladı. Yaranmış mürəkkəb şəraitdə hökumət, ilk növbədə dövlət aparatının təşkili işini davam etdirdi, əsas diqqəti Nazirlər Şurasının və ayrı-ayrı nazirliklərin idarə aparatlarının yaradılmasına yönəltdi. 1918-ci il sentyabrın 15-də Bakı türk və Azərbaycan hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu tərəfindən azad olundu, sentyabrın 17-də isə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü.

Bakıya köçdükdən sonra Xoyski hökuməti həm ictimai-siyasi, həm də təsərrüfat və mədəni quruculuq sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başladı. Hökumət Məclisi-Məbusanın (parlamentin) çağırılması işinin təşkili üçün komissiya yaratdı, daha sonra bu iş fəaliyyətini yenidən bərpa etmiş Azərbaycan Milli Şurasına həvalə edildi.

Azərbaycan Parlamentinin ilk iclası 1918-ci il dekabrın 7-də açıldı. Xoyski çox mürəkkəb tarixi şəraitdə hökumətin fəaliyyəti barədə Parlamentə hesabat verdi. O deyirdi: "...Biz hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər, yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur: **MİLLƏTİN HÜQUQU, İSTİQLALI, HÜRRİYƏTİ!"**. Çıxışının sonunda o, istefasını qəbul etməyi Parlamentdən xahiş etdi. Parlament hökumətin istefasını qəbul edərək, onun təşkilini yenidən Xoyskiyə tapşırdı. Fətəli xan dekabrın 26-da hökumətin proqramı və tərkibi barədə Parlamentdə çıxış etdi. Geniş müzakirələrdən sonra Parlament Xoyski hökumətinin proqramını bəyəndi və onun yeni üzvlərinə etimad gostərdi. Bu hökumətdə Xoyski baş nazir vəzifəsi ilə yanaşı, xarici işlər naziri vəzifəsini də tutdu.

Müxalifətçi partiyalar və fraksiyaların hökumətə qarşı yaratdığı dözülməz vəziyyətlə əlaqədar 1919-cu il fevralın 25-də Xoyski hökuməti yenidən istefa verdi. Təcrübəli və səriştəli dövlət xadimi Fətəli xan Xoyskinin o zamankı son dərəcə mürəkkəb şəraitdə istefa verməyə məcbur olması Azərbaycan Xalq Cümhuriyyətinin müqəddəratına mənfi təsir göstərdi.

1919-cu ilin dekabrında Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 5-ci hökumətin tərkibində Xoyski xarici işlər naziri vəzifəsini tutdu.

Fətəli xan Xoyski Azərbaycan Cümhuriyyətinin ilk hökumət başçısı kimi Azərbaycan istiqlalının elanı barədə dünya dövlətlərinə ünvanlanan radioteleqramı imzalamış, 5-ci hökumət kabinəsinin xarici işlər naziri olarkən isə istiqlalın Paris Sülh Konfransı tərəfindən tanınması haqqında Parlamentdə məlumat vermişdi.

1920-ci il aprelin ortalarında 11-ci Qırmızı ordu Şimali Qafqazda Denikin qüvvələrini məğlub edərək, Azərbaycan Xalq Cümhuriyyətinin Şimal sərhədlərinə yaxınlaşdı. Aprelin 27-də 11-ci Qırmızı ordu beynəlxalq hüquq normalarını pozaraq, Azərbaycan sərhədlərini keçdi və Bakıya doğru hücum əməliyyatına başladı. Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoyuldu. Aprel işğalından (1920) sonra Tiflisə mühacirət etməyə məcbur olan Fətəli xan Xoyski iyunun 19-da orada "Daşnaksutyun"un muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirildi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Fətəli xan Xoyskinin Azərbaycan dövlətçiliyi tarixindəki fəaliyyətini yüksək qiymətləndirmişdir. Heydər Əliyevin 1995-ci il 18 dekabr tarixli sərəncamı ilə Fətəli xan Xoyskinin anadan olmasının 120 illiyinin təntənəli surətdə qeyd olunması üçün geniş heyətdə təşkilat komitəsi yaradılmışdı. Onun diqqət və qayğısı sayəsində Tiflisdə Fətəli xan Xoyskinin məzarı üzərində xatirə abidəsi ucaldılmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# AZƏRBAYCAN İQTİSADİYYATI ULU ÖNDƏRİN QURDUĞU MÖHKƏM SÜTUNLAR ÜZƏRİNDƏ PƏRVƏRİŞ TAPIB

***Hər bir xalqın, millətin tarixində və taleyində, milli-mənəvi bütövlüyünün təmin olunmasında tarixi şəxsiyyətlər müstəsna rol oynamışlar. Azərbaycan xalqı üçün bu nəcib missiyanı daşımaq ulu öndər Heydər Əliyevə nəsib oldu. XX əsrdə Azərbaycan iki dəfə dövlət müstəqilliyinə qovuşdu. 1918-ci ilin may ayının 28-də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Cəmi 23 ay yaşayan bu dövlət qısa zaman kəsiyində xalqımızın milli-mənəvi oyanışında və inkişafında çox işlər gördü. Bundan 74 il sonra 1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan Respublikası öz dövlət müstəqilliyini ikinci dəfə elan etdi. O tarixdən 27 il ötür. Zaman dəyişir, Heydər Əliyev aramızda yoxdur. Lakin onun özü kimi qurub-yaratdığı dövlət də əbədiyaşarlıq hüququ qazanıb. Bu günlərdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini böyük qürur və iftixar hissləri ilə bayram edirik. Qürur hissi ona görə keçiririk ki, ilk Cümhuriyyəti qurub yaradan ata-babalarımızın arzuları çin olub. Onların adlarına layiq dövlət qura bilmişik. İqtisadi gücü və qüdrəti ilə regiona liderlik edən, beynəlxalq aləmdə nüfuz sahibi olan, dünyaya səpələnən 50 milyondan artıq soydaşımızın müqəddəs and yerinə və məbədgahına çevrilən müstəqil bir dövlət yarada bilmişik. Bütün bunlara isə mücadilələrdən, məşəqqətli yollardan keçə-keçə nail olunub. Bu şərəfli və şanlı tarixi bir daha vərəqləyək.***

İkinci dəfə qazanılan dövlət müstəqilliyini əbədi və dönməz elan edən ulu öndər Heydər Əliyev yenidən Azərbaycan hakimiyyətinə qayıtdığı zaman ölkədə acınacaqlı vəziyyət yaranmışdı. Bir tərəfdən xaos, iqtisadi böhran, hərc-mərclik, digər tərəfdən torpaqlarımızın 20 faizinin işğalı və bunun nəticəsində bir milyondan artıq qaçqın və köçkün soydaşlarımızın olması vəziyyəti bir qədər də ağırlaşdırmışdı. Ölkə vətəndaş müharibəsi həddinə çatmış, daxili çaxnaşmalar və çəkişmələr səngimirdi. Seperatçı qüvvələrin dövlət çevrilişi cəhdləri, ulu öndərə qarşı saysız-hesabsız təhdidlər, hədə-qorxular onun polad iradəsini sındıra bilmədi. O, sinəsini irəli verərək ölkəni bu ağır durumdan qurtara bildi. Ulu öndər nəinki vəziyyətdən çıxış yolu tapdı, eyni zamanda, indiyədək xəyal görünən, əfsanə hesab edilən transmilli layihələrin reallığa çevrilməsini qaçılmaz hala gətirdi.

Həm də bu işlərin hamısı məhdud maliyyə resursları və zəif büdcə vəsaitləri ilə öz həllini tapırdı. Uzun danışıqlardan, mübahisələrdən sonra 1994-cü ilin sentyabr ayının 20-də Bakıda dünyanın 11 transmilli neft şirkətlərinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı «Azəri-Çıraq-Günəşli» yataqlarının işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında saziş imzalandı. «Əsrin müqaviləsi» ilə tarixə düşən bu layihə Azərbaycanın inkişaf və tərəqqisi üçün parlaq səhifələr açdı.

Azərbaycanda hasil olunan neftin dünya bazarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft kəməri, Novorossiyski Şimal İxrac Boru kəməri, Gürcüstanın Subsa Qərb İxrac Boru kəməri, Bakıdan 55 kilometr cənubda yerləşən Səngəçal Neft Terminalı inşa edildi. «Bakı-Tbilisi-Qars-Ərzurum» Qaz İxrac kəməri tikilib istifadəyə verildi. Reallaşan hər bir layihə Azərbaycanı pillə-pillə sosial-iqtisadi yüksəlişə çəkib aparmağa başladı. 2007-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi tamamlanıb istifadəyə verildi, «TANAP», «TAP» kimi nəhəng layihələrin tikintisinə başlanıldı. Azərbaycanın uzunmüddətli strateji maraqlarına xidmət edən neft və qaz layihələrinin gerçəkləşdirilməsi, yeni yataqların aşkar edilməsi, ixrac kəmərlərinin tikilməsi bu gün də davam etdirilir.

2017-ci il sentyabr ayının 14-də imzalanmış «Azəri-Çıraq-Günəşli» yataqlarının 2050-ci ilədək birgə işlənməsi, Hasilatın Pay Bölgüsünün dəyişdirilməsi barədə müqavilələrin imzalanması Heydər Əliyev kursunun işdə və əməldə real təcəssümüdür.

***1999-cu ildə Heydər Əliyev tərəfindən Dövlət Neft Fondu və bununla da qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi üçün etibarlı təminat yaradıldı. Neftdən və qazdan gələn gəlirlərin həm real sektora, həm də sosial məsələlərin həllinə yönəldilməsi təşəbbüslərinə başlandı. Bu işlərin bir çoxu daxili investisiyalar hesabına görüldü. Dövlət Neft Fondunun vəsaiti hesabına qaçqın və köçkünlər üçün 3 min məktəb, 600 xəstəxana və 30 Olimpiya Mərkəzi inşa olundu, 11 min kilometr uzunluğunda yol çəkildi, yeni enerji strukturu yaradıldı, yüzlərlə istehsal və emal müəssisələri açıldı.***



Bunun ardınca ulu öndər tərəfindən qədim İpək Yolunun bərpası istiqamətində əməli tədbirlərə start verildi. Böyük İpək Yolu 30-dan çox dövlətin iqtisadi inkişafına xidmət edən, ayrı-ayrı xalqları və millətləri bir-biri ilə bağlayan, inteqrasiya imkanlarını gücləndirən bir layihədir.

Azərbaycanda özəl bölmənin təşəkkül tapıb formalaşması, bazar prinsiplərinə keçidin təmin olunması, azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafına geniş yol açılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin ciddi səyi nəticəsində kiçik və orta sahibkarlıq sübyektlərinə maliyyə dəstəyi, zəruri texniki yardımların göstərilməsi sistemli və davamlı xarakter aldı. Sahibkarlıq subyektlərinin vergi yükünün aşağı salınması məqsədilə mənfəət və əlavə dəyər vergisinin dərəcələri azaldıldı, kiçik sahibkarlıq subyektlərinə sadələşdirilmiş vergi sistemi tətbiq edilməyə başlanıldı.

***Dövlət əmlakının özəlləşdirilməsi üçün qanunvericilik bazası yaradıldı. 1998-ci ildə MDB məkanında ilk dəfə olaraq Azərbaycanda aqrar islahatlar həyata keçirildi, hər bir vətəndaşın torpaq üzərində mülkiyyət hüququ tanındı və bununla Azərbaycanın bölgələrinin bazar prinsiplərinə keçidi üçün real imkanlar açıldı. Çox çətin və mürəkkəb mərhələlərdən keçən bu prosesin qısa zaman kəsiyində və uğurla sonuclanması Heydər Əliyevin fövqəladə bacarığından və idarəetmə məharətindən qaynaqlanırdı. İqtisadi sistemin liberallaşması ilə bağlı ulu öndərin qəbul etdiyi qərarlar, imzaladığı sərəncamlar mükəmməl iqtisadi modelin yaradılmasına rəvac verməklə yanaşı, sonrakı yüksəliş və tərəqqiyə güclü təkan verdi. Sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, xarici ticarət əməliyyatlarının, daşınmaz əmlak hüquqlarının qeydiyyatı, investorların maraqlarının qorunması sahəsində aparılan islahatlar, yoxlamaların azaldılması istiqamətində həyata keçirilən tədbirlər öz real bəhrəsini verməyə başladı. Zaman keçəcək, bu tədbirlərin müsbət təsiri hər yerdə görünəcəkdi. Bu, belə də oldu. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə milli iqtisadiyyatın bazar prinsipləri əsasında qurulmasına dair 70-dən çox qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış və 30-a yaxın dövlət proqramları təsdiq edilmişdir. Ümummilli liderin sosial-iqtisadi sahədə irəli sürdüyü inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində 1995-ci ildən başlayaraq respublika iqtisadiyyatı tənəzzüldən dinamik inkişaf dövrünə qədəm qoydu. Kiçik statistikaya nəzər yetirək. 1993-2003-cü illər ərzində Azərbaycanın ümumi daxili məhsulu 1,9 dəfə, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 8,5 dəfə, sənaye məhsullarının istehsalı 22,4 faiz, kənd təsərrüfatı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, real sektorda çalışanların əməkhaqları 6,2 dəfə artmış, yoxsulluğun və işsizliyin səviyyəsi aşağı düşmüşdür. Bu dövrdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar civarında sərmaya yatırılmışdır.***

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının tarixində ilk dəfə təhsil sahəsində islahatlara başlamış, 1998-ci ilin martın 30-da Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaratmışdır. Elə həmin ildə Azərbaycan müəllimlərinin birinci qurultayı keçirilmişdir. O, həmçinin gənclərin xarici ölkələrdə təhsil alması ənənəsini yenidən bərpa etmiş, ən qabiliyyətli və bacarıqlı gənclər Türkiyənin, Rusiyanın nüfuzlu ali məktəblərinə göndərilmişlər. Məhz bu tədbirlərin görülməsi nəticəsində 2003-cü ildən başlayaraq təhsil sahəsində yeni inkişaf mərhələsi başlamışdır.

***Cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilərkən ölkədə mükəmməl dövlətçilik modeli yaradılmış, iqtisadi yüksəlişi təmin edən möhkəm sütunlar qurulmuşdu. Möhkəm dayaqlar üzərində uzunmüddətli inkişaf konsepsiyası yaratmaq missiyası cənab İlham Əliyevin üzərinə düşmüş və o, bu missiyanı uğurla gerçəkləşdirə bilmişdir. Belə ki, 2004-2018-ci illərdə milli iqtisadiyyat 3 dəfədən çox genişlənmiş, strateji valyuta ehtiyatları 23 dəfə artaraq 42 milyard dolları ötüb keçmişdir. Bu illər ərzində nəhəng sənaye kompleksi yaradılmış, aqroparklar, sənaye parkları tikilib istifadəyə verilmiş, respublika iqtisadiyyatına 231 milyard dollar sərmaya qoyulmuş, sahibkarlıq subyektlərinə güzəştli şərtlərlə 2 milyard manatdan artıq kredit verilmişdir. 2004-2018-ci illərdə ölkədə 1,9 milyon yeni iş yeri açılmışdır ki, bunun da çox hissəsi regionların payına düşür. Son 14 il ərzində regionların sosial-iqtisadi inkişafına dair üç mərhələ Dövlət Proqramı qəbul edilərək icra olunmuşdur. Azərbaycan dünyanın ən sürətli və dayanıqlı inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Davos Beynəlxalq İqtisadi Forumunun «2017-2018 Qlobal Rəqabətlilik hesabatı»nda Azərbaycan rəqabətlilik reytinqi üzrə dünyada 35-ci, MDB ölkələri arasında birinci yerə layiq görülmüşdür. Dünya Bankının «Doing Business» hesabatında Azərbaycan Avropa və Mərkəzi Asiya regionunda ən islahatçı üç ölkədən biridir. «İnklüziv inkişaf indeksi»ndə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında üçüncü, MDB ölkələri arasında birinci yerdədir.***

Müstəqil Azərbaycanın mürəkkəb və çətin yollardan keçən tarixinə qısa nəzər saldıqda yalnız bir qənaətə gəlmək olar: tənəzzüldən tərəqqiyə doğru belə sürətli və sıçrayışlı yol qət etmək dünyada çox unikal hadisədir. Bu gün gerçəkləşdirilən Strateji Yol Xəritəsinin hədəfləri daha böyükdür. Xüsusilə, aqrar sahədə həyata keçirilən tədbirlərin və islahat proqramlarının miqyası o qədər genişdir ki, bunlar Azərbaycanı iqtisadi inkişafın keyfiyyətcə yeni fazasına gətirib çıxaracaq. Pambıqçılığın, tütünçülüyün, ipəkçiliyin, çayçılığın, fındıqçılığın, zeytunçuluğun və digər sahələrin inkişafında sıçrayışlı artım tempi özünü göstərəcək, sahibkarlıq subyektlərinin sayı artacaq, yeni yaradılmaqda olan aqroparkların, emal və istehsal müəssisələrinin hesabına ölkənin ixrac potensialı bir neçə dəfə yüksələcək, Azərbaycan inkişaf etmiş sosial rifah dövlətinə çevriləcəkdir.

*Zülfü İLYASOV,*
*«İqtisadiyyat» qəzetinin bölgə müxbiri*

# Azərbaycan Respublikasında tikinti kompleksinin yaradılması və inkişafında ümummilli lider Heydər Əliyevin rolu

Azərbaycanda tikintiyə maraq 19-cu əsrin ortalarından başlamasına baxmayaraq, bu sahənin intensiv inkişafı, geniş tikinti potensialının yaradılması, sahə üzrə inkişaf proqramlarının qəbul edilməsi, yeni kadrların yetişdirilməsi və ortaya çıxarılması məhz ulu öndərin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərə təsadüf edir. Sovet dövründə ölkədə müəyyən sosial və iqtisadi inkişafa baxmayaraq, 1960-cı illərin axırlarında Azərbaycan Respublikasının sosial-iqtisadi göstəriciləri Sovet İttifaqının orta göstəricilərindən xeyli aşağı olmuşdur. Adambaşına düşən sosial-iqtisadi göstəricilərinə görə Azərbaycan Respublikası 15 sovet respublikası arasında axırıncı yerlərdən birini tuturdu.

1967-1972-ci illərdə Azərbaycan KP MK-nın aparatında çalışdığım zaman ölkə iqtisadiyyatının bütün sahələrində işləyən insanlar kimi mən də Azərbaycanda aparılan gərgin, konkret işlərin və əldə edilən yüksəlişin canlı şahidi olmuşam. "Tikinti və şəhər təsərrüfatı şöbəsi"ndə işləyən dövrdə, eyni zamand, Azərbaycan KP MK-nın katibi, məşhur neftçi, alim Əli Cabbar oğlu Əmirovun köməkçisi vəzifəsini icra etmişəm. Bu zaman "Neft-kimya", "Sənaye və nəqliyyat", "Yüngül sənaye", "Tikinti və şəhər təsərrüfatı" şöbələrinə MK-nın katibi kimi Ə.Əmirov nəzarət və rəhbərlik edirdi. Deyərdim ki, bu illər ərzində burada çalışan hər bir vətəndaş böyük təcrübə toplamış və Heydər Əliyevin məktəbini keçmişdir.

Ulu öndər Heydər Əliyev 1969-cu ildə ölkə rəhbərliyinə gəlişi zamanı geridə qalmış xalq təsərrüfatını sürətlə inkişaf etdirmək məqsədilə sovet hökuməti qarşısında 70-80-ci və qarşıdan gələn illər üçün möhtəşəm inkişaf proqramı qoymuşdur. Tezliklə Azərbaycanın orta İttifaq səviyyəsindən geridə qalma prosesini dayandırmaq, iqtisadiyyatın inkişaf etdirilməsinin yeni strategiyasını həyata keçirmək tələb olunurdu.

Keçmiş Sovet İttifaqı Kommunist Partiyası və Nazirlər Soveti tərəfindən 1970-1979-cu illər ərzində Azərbaycan iqtisadiyyatının inkişafına yönəlmiş beş vacib qərar qəbul edilmişdir. Onlardan ikisi sənayenin, üçü kənd təsərrüfatının inkişafının daha da intensivləşdirilməsinə həsr edilmişdir. Bu qərarlara əsasən ölkədə yeni müasir sənaye müəssisələrinin tikintisi və yenidən qurulması, kənd təsərrüfatının sürətli inkişafı, sosial-mədəni, xidmət və infrastruktur obyektlərinin tikintisi nəzərdə tutulmuşdur.

Bu möhtəşəm proqramları həyata keçirmək üçün tikinti işlərini xeyli sürətləndirmək, onun maddi-texniki bazasını möhkəmləndirmək tələb olunurdu. Bununla əlaqədar tikinti kompleksində yaranmış vəziyyəti dərindən təhlil etmək üçün 1971-ci ilin iyul ayında Azərbaycan KP MK-nın tikintiyə həsr edilmiş xüsusi plenumu keçirilmişdir. Plenumda tikintidə mövcud vəziyyət ətraflı təhlil olunmuş, nöqsanlar aşkar edilmiş və onların aradan qaldırılması üçün konkret tədbirlər planı təsdiq edilmişdir.

***Qətiyyətlə demək lazımdır ki, bu plenum ölkənin tikinti kompleksində köklü dəyişikliklərə səbəb olmuşdur. Plenumda iştirak edən MK üzvlərinə, nazirlərə, komitə rəhbərləri və digər iştirakçılara aydın oldu ki, o zamankı kimi desək, tikinti xalq təsərrüfatının ən vacib sahələrindən biridir və respublikada tikinti maşınqayırma sahəsi ilə birgə iqtisadiyyatın bütün sahələrinin əsas fondlarının və istehsal güclərinin formalaşmasında, proporsiyaların təkmilləşdirilməsində çox mühüm rol oynayır. Ulu öndər hesab edirdi ki, tikinti kompleksinin bütün problemləri və inkişaf istiqamətləri respublika dövlət orqanlarının diqqət mərkəzində olmalıdır.***

Təhlil göstərir ki, tikintinin ən vacib bəlalarından biri - o zaman planlaşdırmada buraxılan səhvlərə görə kapital qoyuluşunun çoxsaylı obyektlər üzrə bölüşdürülməsi tikilən obyektlərin istifadəyə verilmə tarixinin 1,5-2 dəfə artmasına, keyfiyyətin aşağı salınmasına və maddi-texniki təchizatda buraxılan nöqsanlara gətirib çıxarmışdı. Bunları aradan qaldırmaq üçün tikintidə bütün idarəçilik pillələrində nizam-intizamı möhkəmləndirmək, kadrların məsuliyyətini artırmaq tələb olunurdu. Bununla əlaqədar ilk öncə tikintinin quruluşunun təkmilləşdirilməsinə dair təşkilatı tədbirlərin görülməsini, xüsusən fəaliyyətdə olan Tikinti Nazirliyinin Sənaye Tikinti Nazirliyinə çevrilməsini və "BakıBaşTikinti" İdarəsinin bu nazirliyin tabeçiliyindən ayrılaraq müstəqil təşkilat kimi formalaşmasını qeyd etmək lazımdır. Sənaye və Kənd Tikinti Nazirliklərinin, aparıcı podrat təşkilatlarının rəhbərləri yeni bacarıqlı kadrlarla əvəz edilmiş, demək olar ki, bütün sifarişçi nazirlik və Baş idarələrdə tikinti üzrə müavin vəzifəsi yaradılmışdı.

MK-nın Büro və Katibliyində, Nazirlər Sovetində tikintidə mövcud vəziyyət, bir qayda olaraq, vaxtaşırı müzakirə olunur, bu sahədə vəziyyəti kökündən yaxşılaşdırmaq üçün tikinti kompleksində fəaliyyət göstərən nazirlik, komitə və idarə rəhbərlərinin şəxsi məsuliyyətinin artırılması, kapital qoyuluşunun səmərəli istifadə edilməsi, tikintinin vaxtının azaldılması və keyfiyyətinin yüksəldilməsi məqsədilə daima tədbirlər görülürdü.

İstifadəyə verilməsi nəzərdə tutulan obyektlərin tikintisinə, bir qayda olaraq, xüsusi diqqət yetirilirdi. Hər ilin əvvəlində cari ildə istifadəyə verilməsi nəzərdə tutulan mühüm tikililərin siyahısı müzakirə olunur, hər obyektə nəzarət və vaxtında istifadəyə verilməsini təmin etmək üçün məsul rəhbər işçilər MK-nın Bürosunda təsdiq edilirdi.

1971-1980-ci illərin axırı "Bakıbaştikinti" İdarəsinin yüksəliş illəri idi. Ulu öndər Heydər Əliyev ildə ümumi sahəsi 1,0 mln. kvadratmetr olan yaşayış evlərinin istifadəyə verilməsini Bakı şəhərində sosial və mədəni obyektlərin inşası ilə məşğul olan tikinti təşkilatlarının qarşısında bir vəzifə kimi qoymuşdu. Bu məqsədə nail olmaq üçün Bakı şəhərində nəinki "Bakıbaştikinti" İdarəsinin kollektivi, eyni zamanda, şəhərdə yerləşən tikinti təşkilatları da qızğın iş aparırdılar. Ölkədə il boyu əlverişli iqlim şəraitini nəzərə alaraq tikinti-quraşdırma işləri iki, bəzən üç növbədə aparılırdı. Əmək kollektivləri arasında böyük ruh yüksəkliyi var idi. Peşəkar mühəndislər, yüksək idarəetmə qabiliyyətinə malik kadrlar yetişdirilir və onlar böyük təcrübə toplayaraq sınaqdan keçirilirdilər. Bütövlükdə, Bakı şəhəri üzrə 750 min kvadratmetr yaşayış sahəsinin istifadəyə verilməsi təmin olunmuşdur.

Lakin ulu öndər Heydər Əliyev Moskva şəhərinə, İttifaq rəhbərliyinə, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə dəvət edildikdən sonra Bakı inşaatçılarının qarşısında qoyulan məqsəd tam həyata keçirilmədi.

Araşdırmalar göstərir ki, 1969-1982-ci illər sovet dövründə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının ən yüksək dövrü olmuşdur. Bu illər ərzində ölkədə iqtisadiyyatın bütün sahələri üzrə inkişaf əldə edilmişdir.

1971-1975-ci illər Azərbaycan iqtisadiyyatının inkişafında dönüş mərhələsi olmuşdur. Ötən illərdə ölkə iqtisadiyyatında buraxılmış geriliyi aradan qaldırmaqla yanaşı, yüksək sosial-iqtisadi göstəricilər əldə edilmişdir. Bu illər ərzində nəzərdə tutulmuş sənaye məhsulu 43-46% əvəzinə 50%, orta illik artım 1966-1970-ci illərlə müqayisədə 29% artmış, sənayedə müsbət struktur dəyişikliyi aparılmışdır. Bu işlər sonrakı 1976-1982-ci illərdə də uğurla davam etdirilmişdir. Neftayırma və neft emalı zavodlarında, kimya və metallurgiya sənayesində və digər sahələrdə böyük həcmdə tikinti-yenidənqurma işlərinə başlanılmışdır.

Bu illər respublikada dövlət, kolxoz və əhalinin şəxsi vəsaiti hesabına ümumi sahəsi 14 mln. $m^2$ olan yaşayış evləri istifadəyə verilmişdir ki, bu da 1920-1968-ci illərdəki (müharibə illərini çıxmaq şərtilə) göstəricinin 40%-ni təşkil edirdi. Əgər 1920-1968-ci illərdə (müharibə illərini çıxmaq şərtilə - 43 il) Azərbaycanda orta hesabla ümumi sahəsi 447 min. $m^2$ olan yaşayış evləri istifadəyə verilmişdisə, 1969-1982-ci illərdə (14 il) bu rəqəm müvafiq olaraq 1,4 mln. $m^2$ təşkil etmişdir. Eyni dövrdə müvafiq olaraq 16 və 31 min şagird yerlik məktəb, 1969-1982-ci illərdə isə 1920-1968-ci illərə nisbətən ildə orta hesabla iki dəfə artıq çarpayı yeri olan xəstəxanalar istifadəyə verilmişdir.



*H.Əliyev Bakı Metropoliteninin "Nizami" stansiyasının açılışında. 31 dekabr 1976-cı il*

Sosial və iqtisadi göstəricilərin respublika üzrə ildən-ilə yüksəlməsinin əsas səbəbi iqtisadiyyatın ən vacib sahələrindən biri olan tikinti kompleksinə dövlət tərəfindən gündəlik qayğı və diqqətin artırılması ilə əlaqədar idi.

Araşdırmalar göstərir ki, əldə olunan uğurları daha da möhkəmləndirmək üçün 1976-cı ilin iyun ayında MK-nın tikintiyə aid xüsusi plenumu keçirilmişdir. Burada tikinti materialları sənayesinin, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni kadrların hazırlanması və s. məsələlər qaldırılmışdır. Qeyd edilmişdir ki, istifadəyə verilməsi nəzərdə tutulan sənaye, kənd təsərrüfatı və sosial obyektlərin siyahısının MK-nın bürosunda təsdiq edilməsi özünü doğrultmuşdur. MK-nın nəzdində və regionlarda fəaliyyət göstərən Tikinti üzrə xüsusi Komissiya tikintidə böyük dönüş yaratmışdır. Ölkənin tikinti kompleksində köklü dəyişikliklər baş vermişdir. Tikilən obyektlər vaxtında və keyfiyyətlə istifadəyə verilirdi. Kollektivlərdə böyük ruh yüksəkliyi, işgüzar şərait hökm sürürdü.

Tikinti Kompleksində görülən işlərin ulu öndər Heydər Əliyevin daima diqqət mərkəzində olması bu sahədə çalışan rəhbər işçilərin, eləcə də əmək kollektivlərinin məsuliyyətini xeyli artırmışdır. Nəticədə, tikintinin göstəriciləri əvvəlki illərə nisbətən dəfələrlə artmış, mühüm vacib obyektlər vaxtında istifadəyə verilmişdir. Onların sırasında Kür su kəmərini, Neftçilər və Nizami metro stansiyalarını, Yeni Bakı Neftayırma zavodunun emal kompleksini, Bakı Məişət Kondisionerləri zavodunu, Qaradağ rayonunda nəhəng "Dərin özüllər zavodu"nu və bir çox digərlərini misal göstərmək olar.

Ümumxalq tikintisinə çevrilmiş, qısa müddətdə istifadəyə verilmiş Kür su kəməri Bakı və Sumqayıt şəhərlərinin əhalisinin su ilə təmin edilməsini xeyli yaxşılaşdırmışdır.

Heydər Əliyev hakimiyyətinin 1969-1982-ci illər dövrünü təhlil edərkən görürük ki, ulu öndərin atdığı bir çox addımlar gələcəyə hesablanıbmış. Bu dahi insan hələ o zaman Azərbaycanın gələcəyi haqqında düşünür, ölkənin iqtisadi-sosial inkişafı ilə əlaqədar tədbirlər görür, böyük kadr potensialı hazırlayırdı. O illərdə tikinti kompleksində böyük məktəb keçmiş, məsuliyyət hiss edən, tələbkar, peşəkar, səriştəli kadrlar yetişdirilmişdir. Tikinti kompleksinin timsalında xeyli sayda cavan kadrların rəhbər vəzifələrə irəli çəkilməsini, onların peşəkar, yüksək idarəçilik, işində məsuliyyət hiss edən insanlar kimi yetişməsini və sevimli ölkəmizin sosial-iqtisadi inkişafında böyük əmək sərf etdiklərini görürük.

Heydər Əliyevin ölkəyə rəhbərliyi zamanı tikinti kompleksində göstərdiyi xidmətlərinə görə bir sıra memarlar, layihəçilər, inşaatçılar yüksək adlara layiq görülmüşlər. Görkəmli memar, SSRİ xalq memarı, Azərbaycan Elmlər Akademiyasının akademiki, memarlıq doktoru, professor Mikayıl Ələsgər oğlu Hüseynovun geniş və çoxşaxəli yaradıcılığı nəinki ölkəmizdə, eləcə də xaricdə, dünyanın bir çox ölkələrində yaxşı məlumdur. Memarlığımızın çiçəklənməsində o, nəinki lider, sözün əsl mənasında, müasir Azərbaycan memarlığının yaradıcısı olmuşdur. Məhz ulu öndər Heydər Əliyevin dövründə görkəmli memar Mikayıl Hüseynov və inşaatçılardan keçmiş "Bakı baş tikinti" idarəsinin rəisi Məzahir Ağa oğlu Abdullayev yüksək ada - "Sosialist əməyi qəhrəmanı" adına layiq görülmüşlər. Tikinti kompleksində çalışan 100-dən çox peşəkar mütəxəssis "Əməkdar mühəndis", "Əməkdar memar", "Əməkdar inşaatçı" fəxri adları ilə, orden və medallarla təltif olunmuşlar.

Beləliklə, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətinə başçılıq etdiyi illər ərzində tikinti kompleksinin inkişafına nə qədər çox önəm verdiyinin əyani şahidi oluruq. Məhz onun səyləri nəticəsində SSRİ dövründə respublikamızda tikintinin maddi-texniki bazası sürətlə inkişaf etdirilmiş, nəhəng sənaye obyektləri, yaşayış binaları və mədəni xidmət obyektləri istifadəyə verilmişdir. Tikinti kompleksində güclü elmi-texniki, iqtisadi və peşəkar kadr potensialı yaradılmışdır ki, bu da sahə qarşısında duran perspektiv vəzifələri həll etməyə imkan vermişdi.

Heydər Əliyev İttifaq rəhbərliyində olan zamanlarda da respublikamızın tikinti kompleksinə öz qayğısını əsirgəməyib. Onun bilavasitə köməkliyi ilə bir çox sənaye, kənd və su təsərrüfatı obyektlərinin tikintisi ilə bağlı məsələlər öz həllini tapmışdır.

Sovet dövründə, xüsusən 1969-1982-ci illərdə yorulmaq bilməyən, daima tikinti kompleksinə diqqət yetirən ulu öndər Heydər Əliyevin xidməti nəticəsində Azərbaycan Respublikasının sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşmışdır.

***Cəsarətlə qeyd etmək lazımdır ki, əgər keçmiş Sovet İttifaqında digər respublikalar üçün bu dövr "durğunluq illəri" sayılırdısa, Azərbaycan üçün əsl inkişaf dövrü idi. Heç də təsadüfi deyil ki, sovet imperiyası dağılan zaman ölkə iqtisadiyyatı müsbət saldoya malik olan iki ölkədən biri idi.***

Lakin sovet rejimi dövründə Azərbaycan Respublikası ölkənin inkişafı üçün öz zəngin potensialından layiqincə istifadə edə bilməmişdir. Çünki sovet rejimində respublikaların, o cümlədən Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası mərkəzdə (Moskvada) formalaşdırılır və oradan da idarə olunurdu.

İqtisadiyyatın strateji idarə olunmasının tam şəkildə mərkəzdə cəmləşməsi, bir qayda olaraq, iqtisadi ayrı-seçkiliyə, respublikanın maraqlarının kobudcasına pozulmasına başlıca səbəb idi. Bu isə Azərbaycanda maliyyə-kredit sisteminin, vergi-büdcə, qiymət siyasətinin aparılması və tənzimlənməsinin, xarici iqtisadi əlaqələrin yalnız Moskvadan idarə olunmasına əsas verirdi. Beləliklə, ölkə iqtisadiyyatının inkişafı imperiyanın qarşısında duran məsələlərin həllindən bilavasitə asılı idi.

Belə bir şəraitdə respublikanın öz maliyyə, vergi, kredit, qiymətqoyma, gömrük siyasətini müstəqil həyata keçirmək imkanı olmadığından daxili bazarını formalaşdıra, mütərəqqi sahənin təşəkkülünü təmin edə, iqtisadiyyatın kompleksləşdirmə səviyyəsini artıra və nəhayət özünün inkişaf prinsipini tətbiq edə bilməmişdir. Belə bir şəraitdə, təbii ki, sovet respublikaları azadlığa, iqtisadi müstəqilliyə can atırdı.

Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etmiş, Respublika Ali Sovetinin qəbul etdiyi Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktına 1991-ci il oktyabrın 29-da ümumxalq səsverməsi - referendum vasitəsilə hüquqi təminat yaradılmışdır.

Müstəqilliyin əldə olunması Azərbaycan xalqına baha başa gəlmişdir. 1990-cı ildə 20 Yanvar faciəsi törədilmiş, sahəsi 4400 m2 olan Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), ümumi sahəsi 8810 m2 olan 7 ətraf rayon (Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan) erməni təcavüzkarları tərəfindən işğal edilmişdir. Azərbaycan xalqı uğrunda şəhid olmuş qəhrəman oğul və qızlarını heç vaxt yaddan çıxarmayacaqdır.

Müstəqilliyin ilk illərində hakimiyyətə yeni gəlmiş təcrübəsiz rəhbərlərin səriştəsiz qərarlar qəbul etməsi nəticəsində vaxtilə ölkədə istifadəyə verilmiş, böyük iqtisadi, texniki potensiala malik olan, o cümlədən tikintinin maddi-texniki bazasını təşkil edən müəssisələr bərbad hala salınmışdı.

Ölkəyə rəhbərlik edən təcrübəsiz insanlar tərəfindən 1991-1993-cü ilin birinci yarısında, tələsik yeni kiçik müəssisələrin, digər özəl qurumların yaradılması naminə neqativ hallara yol verilmişdi. Ölkədə hərc-mərclik, özbaşınalıq baş alıb gedirdi. İqtisadiyyatın digər sahələri kimi tikintidə də böhran yarandı. Yaranmış vəziyyət tikinti kompleksinin ayrılmaz bir qolu olan layihə və elmi-tədqiqat institutlarının fəaliyyətinə də mənfi təsir göstərirdi. Layihə və elmi-tədqiqat institutlarında iş həcmlərinin gündən-günə azalması peşəkar, səriştəli mütəxəssislərin vəzifələrindən uzaqlaşdırılması axınına gətirib çıxardı. Layihə təşkilatlarının böyük bir hissəsi özəlləşdirildi və parçalanaraq kiçik layihə bürosu və yaxud qrup şəklində fəaliyyətə başladı. Elə bir vəziyyət yarandı ki, yeni yaranmış çoxsaylı kiçik təşkilatlar zamanın tələblərinə, yəni yeni texnologiyaların və dünya standartlarına cavab verən materialların tətbiqinə uyğunlaşa bilmədilər, başqa sözlə desək, hazır ola bilmədilər. Bu isə ona gətirib çıxartdı ki, layihə təşkilatlarında çalışan mütəxəssislərin bir hissəsi yeni yaranmış ayrı-ayrı kiçik müəssisələrə keçərək, bəziləri xarici ölkələrə köçərək öz fəaliyyətlərini dəyişmək məcburiyyətində qaldılar.

Yalnız ulu öndər Heydər Əliyevin respublika rəhbərliyinə ikinci dəfə qayıdışından sonra, Azərbaycan Respublikası XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan keçən dövr ərzində ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş verdi. Bu, heç də asan deyildi.

***İqtisadiyyatın siyasi, siyasətin iqtisadi ölçülərini dərindən bilən ulu öndər Heydər Əliyev həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyin ilk illərində ölkədə baş alıb gedən siyasi və iqtisadi böhranı aradan qaldırmış, Azərbaycanın demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə irəliləməsinə geniş yol açmışdır. Ölkədə ardıcıl aparılan islahatlar 90-cı illərin ikinci yarısında iqtisadiyyatda, o cümlədən tikintidə mövcud geriləməni dayandırmış və yeni inkişaf mərhələsinə keçidi təmin etmişdir.***

Respublika hökuməti iqtisadiyyatda yaranmış vəziyyəti təhlil edərək, neft sənayesinin inkişafı barədə səmərəli və uzaqgörən qərar qəbul etmişdir. Neft kontraktını bağlamaq üçün xarici ölkələrin nümayəndələri ilə çətin və mürəkkəb danışıqlar gedirdi. Azərbaycan tərəfindən danışıqlar prosesinə o zaman neft şirkətinin vitse-prezidenti cənab İlham Əliyev rəhbərlik edirdi. Nəhayət, 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmışdır.

Ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış "Azərbaycanın dənizdəki neft və qaz yataqlarının işlənməsinin sürətləndirilməsi barədə" 1994-cü il 4 fevral tarixli Sərəncam və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin bağlanması misilsiz ixrac imkanlarının yaradılması və sərmayələrin maliyyələşdirilməsi mənbələrinin formalaşdırılması üçün güclü təkan olmuşdur. Onu da qeyd etmək lazımdır ki, hələ sovet dövründə ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş Dərin Özüllər Zavodu "Əsrin müqaviləsi"nin bağlanmasında mühüm rol oynamışdır.

2000-ci ildə nəşr edilmiş "Heydər Əliyev İşığı - İpək Yolu" adlı kitabda ulu öndər haqqında xatirələrdə qeyd olunurdu: "Azərbaycan Respublikasında tikinti kompleksinin inkişafı Heydər Əliyevin ölkəyə başçılıq etdiyi dövrlə sıx əlaqədardır. Bildiyiniz kimi, ulu öndərin vaxtında 1978-ci ildə təməli qoyulmuş Bakı şəhərində Dərin Özüllər Zavodu 1985-ci ildə istifadəyə verildi. Cənab Heydər Əliyevin incə, qətiyyətli siyasəti sayəsində bu zavod Bakıda tikildi. Bu nəhəng tikintinin əhəmiyyəti doğma Azər-

# Azərbaycan Respublikasında tikinti kompleksinin yaradılması və inkişafında ümummilli lider Heydər Əliyevin rolu

baycan müstəqillik qazandıqdan sonra daha çox qiymətləndirildi. Əgər bu zavod Bakıda tikilməsəydi, "Əsrin müqaviləsi"nin imzalanmasına Qərb ölkələri elə də çox canfəşanlıq göstərməzdilər. Ölkəmizin, müstəqilliyimizin çox mürəkkəb durumunda "Əsrin müqaviləsi" böyük təntənə ilə ona görə imzalandı ki, vaxtilə Cənab Heydər Əliyev Dərin Özüllər Zavodunu incə siyasət yeridərək, Bakıda inşa etdirə bilmişdi. Dərin Özüllər Zavodunun qiyməti, əhəmiyyəti bu gün daha böyük masştabda duyulur. Əgər biz məcburiyyət qarşısında qalıb həmin zavodu tikməli olsaydıq, bir neçə milyard dollar vəsait xərcləməli idik. Budur Heydər Əliyevin qabaqgörənliyi..."

Qeyd etmək lazımdır ki, 1995-ci ildən başlayaraq Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşunun artması meyli müşahidə edilir. Belə ki, 1996-2000-ci illərdə 1991-1995-ci illərlə müqayisədə ölkədə əsas kapitala investisiya qoyuluşu 7,5 dəfə, 2001-2005-ci illərdə 1996-2000-ci ilə nisbətən 3,9 dəfə, 2003-cü ildə 2000-ci illə müqayisədə isə əsas kapitala yönəlmiş investisiyaların həcmi 4 dəfə artmışdır.

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkədə tikinti-quraşdırma işlərinin artırılmasının təmin olunmasında və çoxsaylı prioritet dövlət proqramlarının hazırlanması və qəbul olunmasında böyük rol oynamışdır. Bu isə iqtisadiyyatın strukturunun əsaslı şəkildə dəyişdirilməsinə yönəlmişdir. Bazar iqtisadiyyatına keçid dövründə (1996-2007-ci illər) tikintidə mühüm islahatlar aparılmış, 2008-ci ilin əvvəlindən tikinti kompleksində qiymətlər tam liberallaşmış və ölkə iqtisadiyyatının bu sahəsi bazar münasibətləri şəraitində tam fəaliyyət göstərməyə başlamışdır.

Respublikada **"ƏSRİN MÜQAVİLƏSİ"**nin bağlanmasından, iqtisadi islahatlar aparılandan, bazar münasibətlərinin mövcudluğu üçün lazımi şərait yaradılandan, ölkə iqtisadiyyatında sabitlik və özəl sektorun inkişafı üçün əlverişli şərait təmin ediləndən sonra Azərbaycan xarici sərmayələr üçün Cənubi Qafqazın ən cəlbedici dövlətinə çevrilmişdir. Xüsusilə qeyd edilməlidir ki, 1996-cı ildən başlayaraq və sonrakı 10-12 il ərzində irimiqyaslı sərmayə qoyuluşunda xarici investisiyaların əsas hissəsi neft, qaz emalı və nəqliyyat sahələrinin payına düşmüşdür.

1995-ci ildən ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı İlham Əliyev tərəfindən düşünülmüş islahatların ardıcıllıqla aparılması son 20 ildə ölkə iqtisadiyyatının bazar münasibətləri şəraitində uğurla fəaliyyət göstərməsi və keçid dövrünü müvəffəqiyyətlə başa vurmasında böyük rol oynamışdır.

**Beləliklə, 1969-1982-ci illər və sonralar - Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra tikinti kompleksi və onun maddi-texniki bazası sürətlə inkişaf etmiş, yeni peşəkar kadr potensialı yaradılmış, ölkə iqtisadiyyatının, o cümlədən tikinti kompleksinin bazar münasibətlərinə keçidlə əlaqədar möhtəşəm proqramı hazırlanmış və həyata keçirilməsi üçün bütün şərait yaradılmışdır.**

**Bu dahi şəxsiyyət ölkəyə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan xalqının xoşbəxt və firavan gələcəyi naminə çox işlər görmüşdür. Respublikaya rəhbərlik etdiyi birinci dövrdə (1969-1982-ci illər) biz onu daha çox qurucu, yaradıcı bir dövlət xadimi kimi görürüksə, rəhbərliyinin ikinci dövründə (1993-2003-cü illərdə) öz xalqının xilaskarı, dövlətçiliyin möhkəmləndirilməsi, onun inkişaf etdirilməsi, mürəkkəb siyasi-iqtisadi vəziyyətdə mövcud ciddi təhlükələrdən qorunması üçün düzgün qərar qəbul etmək məsuliyyətini, həmçinin çox böyük məharət və ustalıqla həmin qərarları yerinə yetirə bilmək iqtidarında olan dahi bir insan kimi görürük.**

Həmin günləri xatırlayarkən yadıma düşən maraqlı bir epizodu oxucularla bölüşmək istəyirəm.

**1969-cu ilin mart ayı idi.**

*"İnanıram ki, axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümid bəsləyirəm."*

*Heydər Əliyev*

**Azərbaycan KP MK-da çalışırdım. Bir qayda olaraq, aparatın məsul işçiləri tərtib olunmuş qrafik üzrə Birinci katibin qəbul otağında hər gün axşam 18.00-dan səhər 9.00 kimi növbətçilik edirdilər. Bir gün mənim növbətçi olduğum zaman gecə saat 2-3 radələrində "VÇ" deyilən birbaşa telefonla Moskvadan zəng olundu. Dəstəyi götürüb rus dilində "məsul növbətçi Eldar Nuriyev, qulaq asıram" dedim. "SSRİ Müdafiə Nazirliyindən general İvanov narahat edir. Xəbər verirəm ki, Tbilisiyə "xüsusi reys"lə uçan təyyarə hava şəraiti pis olduğundan enə bilmədiyi üçün onun Bakıya uçması qərara alınmışdır. Xahiş edirik lazımi ölçü götürmək üçün rəhbərliyə təcili xəbər verəsiniz. Həyatımda birinci dəfə idi ki, belə çıxılmaz vəziyyətə düşmüşdüm. Tərəddüd içində idim. Gecənin bu vaxtında kimə zəng edəcəyimi düşünürdüm. O zaman Birinci katib mərhum Vəli Yusif oğlu Axundov, Nazirlər Sovetinin sədri Ənvər Nəzər oğlu Əlixanov idi. Qərara gəldim... Əlixanova zəng etdim. Üzr istəyib, əhvalatı ona danışdım.**

**"Heydər Əliyevə zəng vurun" dedi. Mən məcbur olub gecənin bu vaxtında hökumət telefonu ilə Dövlət Təhlükəsizlik Komitəsinin sədri, general Əliyevin evinə zəng etdim. Dəstəyi mülayim səsli bir xanım götürdü (çox güman ki, rəhmətlik Zərifə xanım idi) və sorğuma cavab verərək dedi: "Heydər Əliyev işdədir". Mən təşəkkür edib Heydər Əliyevin "üç nömrəli" hökumət telefonuna zəng etdim. Salamlaşaraq əhvalatı ona çatdırdım. Sakit və əmin səslə dedi: "Hər şey məlumdur. Təyyarə 20 dəqiqədən sonra qəbul olunacaq. Çox sağ olun". Telefonun dəstəyini yerinə qoydum və dərindən nəfəs aldım.**

**2011-ci il mayın 27-də "Buta" sarayında 28 may - Respublika günü münasibətilə rəsmi qəbulda Prezident İlham Əliyev öz çıxışında qeyd etmişdir: "Bütövlükdə 1993-2003-cü illər Azərbaycan üçün, dövlətçiliyimiz üçün həlledici illər olmuşdur. O illərdə əldə edilmiş uğurlar bu gün də bizə imkan verir ki, ölkəmizi inamla irəliyə aparaq, bu siyasəti davam etdirək və qarşıda duran bütün vəzifələri layiqincə icra edək."**

Ulu öndər Heydər Əliyev respublika jurnalistlərinə verdiyi müsahibələrinin birində demişdir:

Bəli, cənab Prezident İlham Əliyev ulu öndərin layiqli davamçısı kimi ölkə iqtisadiyyatını uğurla inkişaf etdirir. Artıq Azərbaycan dünyada sürətlə inkişaf edən müstəqil respublika kimi tanınır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2004-2016-cı illər ərzində bütün mülkiyyət formalarından olan müəssisə və təşkilatlar tərəfindən ölkə iqtisadiyyatının və sosial sahələrin inkişafı üçün əsas kapitala 148,3* mlrd. manat, tikinti-quraşdırma işlərinə 95,9 mlrd. manat vəsait yönəldilmişdir. Bu illərdə əsas kapitala yönəldilmiş vəsaitin orta illik həcmi 11,4 mlrd. manat təşkil etmişdir.

Həmin illər ərzində bütün mülkiyyət növləri üzrə ümumi sahəsi 24,1 milyon kvadratmetr olan 210,0 min yeni mənzil tikilib istifadəyə verilmiş, onlardan 7,7 milyon kvadratmetri (36,6 faizi) kənd yerlərində inşa edilmişdir. Əhalinin öz şəxsi vəsaiti hesabına istifadəyə verilmiş fərdi yaşayış evləri 15,2 milyon kvadratmetr (bütün yaşayış evlərinin 63,0 faizi qədər) təşkil etmişdir.

2016-cı ildə bütün mülkiyyət növləri üzrə istifadəyə verilmiş yaşayış evlərinin 94,3 faizi qeyri-dövlət vəsaiti hesabına həyata keçirilmişdir.

2004-2016-cı illəri əhatə edən dövrdə ölkədə 8114 çarpayılıq xəstəxana, növbədə 9017 xəstəni qəbul edən ambulatoriya-poliklinika müəssisəsi, 509,6 min şagird yerlik ümumtəhsil məktəbi, 19685 yerlik məktəbəqədər təhsil müəssisəsi, 6500 yerlik klub və digər sosial-mədəni obyektlər tikilib istifadəyə verilmişdir.

İqtisadi təhlil göstərir ki, yeni minilliyin başlanğıcında özünün zirvəsinə çatmış sərmayə əyrisi 2003-cü ildən başlayaraq yanacaq-energetika kompleksindən qeyri-neft sektoruna yönəlmişdir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, ildən-ilə ümumi sərmayə həcmində daxili sərmayələrin payı üstün olmuş, bu təmayülün qəti üstünlüyü isə 2008-ci ildə əldə edilmişdir. Əgər 2003-cü ildə iqtisadiyyatın inkişafına qoyulan vəsaitin ümumi həcmində xarici sərmayələrin xüsusi çəkisi -75,2%, daxili sərmayələrin xüsusi çəkisi -24,8% idisə, sonrakı illərdə xarici sərmayələrin həcmi azaldığı üçün bu göstəricilər 2016-cı ildə müvafiq olaraq -41,0% və -58,9% təşkil etmişdir.

Təhlil göstərir ki, tikinti təşkilatları bazar iqtisadiyyatına keçid zamanı sürətlə inkişaf etmişlər. 2001-ci ildən başlayaraq tikinti təşkilatlarının makroiqtisadi göstəriciləri xeyli yaxşılaşdırılmışdır. Belə ki, tikinti təşkilatları tərəfindən öz gücləri ilə (subpodrat təşkilatlarsız) yerinə yetirilmiş işlərin həcmi 2016-cı ildə 2003-cü ilə nisbətən 8,0 dəfədən çox artmışdır.

Ölkədə aparılan yeni iqtisadi islahatlar nəticəsində tikinti təşkilatlarının böyük bir hissəsi özəlləşdirilmiş və onların xüsusi çəkisi tikinti təşkilatlarının ümumi sayını xeyli artırmışdır. Tikinti təşkilatlarının ümumi sayında 2000-ci ildə dövlət təşkilatlarının xüsusi çəkisi -54,2%-dən 2016-cı ildə -16%-ə düşmüşdür, qeyri-dövlət təşkilatlarının xüsusi çəkisi müvafiq olaraq 45,8%-dən 90%-ə yüksəlmişdir.

Son illər tikintinin və onun maddi-texniki bazasının inkişafına böyük vəsait yönəlmişdir. Belə ki, əgər 2007-ci ildə bu sahəyə ayrılmış investisiyanın həcmi 484,4 mln. manat təşkil edirdisə, 2016-cı ildə bu vəsait 4,5 dəfə artmış, bu da sovet vaxtından tikintidə istifadə olunan, öz istifadə müddətini keçmiş əsas maşın və mexanizmlərin yeni yüksək əmək məhsuldarlığına malik xarici maşın və mexanizmlərlə əvəz edilməsinə imkan vermişdir.

Bu illər ərzində ölkə iqtisadiyyatının yüksəlişini təmin edən bir neçə vacib obyektlər istifadəyə verilmişdir. 2006-cı ildə Azərbaycan xalqının tarixində böyük hadisə baş verdi. Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft-boru kəməri istismara verildi. Bu boru kəmərinin köməyi ilə Xəzərin "Qara qızıl"ı Aralıq dənizi sahillərinə çatmış və dünya bazarlarına çıxmışdır. Sonrakı dövrlərdə Bakı-Tbilisi-Ərzurum mühüm qaz layihəsi həyata keçirilmişdir. Bununla da, Azərbaycan öz neft strategiyasının əsas mərhələsini həyata keçirməyə nail oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, Bakı-Tbilisi-Ceyhan-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti Azərbaycanın müasir tarixində çox böyük hadisədir.

Qitələrarası əhəmiyyəti olan bu layihə Cənubi Qafqaz vasitəsilə Avropa və Asiyanı birləşdirəcəkdir. Metro inşaatçılarının gərgin əməyi nəticəsində "Dərnəgül", "Nəsimi", "Azadlıq", "Avtovağzal" və "Memar Əcəmi" metro stansiyaları istifadəyə verilmişdir. Paytaxtda yeni körpülərin, yolötürücülərinin, piyada keçidlərinin istifadəyə verilməsini, regionlarda yeni təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin tikintisini xüsusi qeyd etmək lazımdır. Şəhər və regionlarda istifadəyə verilən istehsal sahələri, Olimpiya idman kompleksləri, diaqnostika mərkəzləri, yaşayış və xidmət obyektləri buna əyani sübutdur.



*H.Əliyev Məişət Kondisionerləri zavodunun açılışında. 25 dekabr 1975-ci il*

Keçən dövr ərzində ölkə prezidenti cənab İlham Əliyev mahiyyətindən asılı olaraq yeni tikilib istifadəyə verilən obyektlərin açılışında şəxsən özü iştirak etmişdir. Buna misal olaraq, 2010-cu ilin axırlarında Oğuz-Qəbələ-Bakı su kəmərinin, metro stansiyalarının və bir çox obyektlərin istifadəyə verilməsini göstərmək olar.

Oğuz-Qəbələ-Bakı su kəməri ölkəmizin yeni tarixinə ən böyük layihələrdən biri kimi daxil olmuşdur. Qeyd etmək istərdim ki, ötən əsrin əvvəllərində ilk dəfə milyonçu H.Z.Tağıyevin təşəbbüsü ilə Bakıya su çəkilmişdir. İnkişaf edərək daha da böyüyən Bakının su tələbatının ödənilməsi üçün növbəti belə təşəbbüs 1970-ci ilin əvvəllərində ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülmüş və Bakının Kür suyu ilə təchiz olunması üçün böyük işlər görülmüşdür.

Nəhayət, üçüncü dəfə Prezident İlham Əliyevin təşəbbüsü ilə Oğuz-Qəbələ-Bakı su kəməri müvəffəqiyyətlə istifadəyə verilmişdir.

Ötən illər ərzində ilk dəfə olaraq, mədəniyyət və tarix abidələrinin, teatr və muzeylərin bərpasına böyük həcmdə vəsait yönəldilmişdir. 1903-cü ildə məşhur Azərbaycan milyonçusu - mesenat Hacı Zeynalabdin Tağıyev tərəfindən tikilmiş bina - hazırda Azərbaycan Milli Tarix Muzeyi cəlb olunmuş italyan memar və mütəxəssisləri tərəfindən tam şəkildə restavrasiya edilərək ilkin vəziyyətinə gətirilmişdir. Azərbaycan və rus dram teatrları, Opera və Musiqili Komediya teatrları və s. restavrasiya edilmişdir və onların qapıları artıq tamaşaçıların üzünə açıqdır.

Son illərdə dünya səviyyəsində öz dəst-xətti olan memarlar ölkəmizə dəvət olunur. Dövlətçilik fəlsəfəsinin və ölkənin milli lideri Heydər Əliyev ideologiyasının dərindən öyrənilməsi, eləcə də onun geniş təbliğatı və hərtərəfli inkişafı məqsədilə "Heydər Əliyev Mərkəzi" tikilib istifadəyə verilmişdir. Bu əzəmətli mərkəz (memar Zaha Hadid) öz görkəmi və memarlığına görə Bakı şəhərinin yaraşığına çevrilmişdir. "Muğam evi" (memarlar - Vahid Qasım oğlu Tansu və Haniddin Uyak Etirne Ahmet), "Xalça Muzeyi" (memarlar - Frans Yans və Valter Mari), Neft Fondunun binası (memar Xavyer Pilaton), Neftçilər prospektində mehmanxana kompleksi (memar Kunio Vatanabe) və digərləri ölkə sakinləri üçün yaxşı hədiyyədir.

Bu gün Yuzef Qədimov, Rasim Babakişiyev, Faiq Yüzbaşov, Famil Ağayev, Nəriman İmaməliyev, Sənan Salamzadə, İlqar İsbatov, Novruz Eldarlı, Vüqar Həsənov, Camal Qədirov, Elbay Qasımzadə və digər memarlar respublikada kifayət qədər yüksək memarlıq səviyyəsində işlər görürlər.

Müstəqillik əldə edildikdən sonra Azərbaycanın iqtisadi uğurları dövlətimizin tarixinə sosial-iqtisadi inkişafın mühüm mərhələsi kimi daxil olmuşdur. Tikinti kompleksi iştirakçılarının səyləri nəticəsində iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün lazımi şərait yaradılmışdır.

Azərbaycan Respublikasının son dövrdə qazandığı uğurlardan danışarkən ilk dəfə olaraq Azərbaycanda keçirilən birinci Avropa oyunlarını qeyd etmək lazımdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul edilən, xalqımızı ürəkdən sevindirən bu qərar Azərbaycanın həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində artan nüfuzunun etirafıdır desək yanılmarıq.

Qloballaşan dünyamızda Avropanın enerji təminatında mühüm payı olan irimiqyaslı, milyardlarla vəsait tələb edən beynəlxalq layihələr, o cümlədən Böyük İpək Yolunun bərpası, TANAP, Bakı-Ceyhan, Bakı-Tbilisi-Qars, Bakı-Ərzurum və digər önəmli layihələr, beynəlxalq idman oyunlarının ölkəmizin paytaxtı Bakı şəhərində yüksək səviyyədə keçirilməsi bir faktdır.

Memarlıq və tikintiyə, turizm və xidmət sahələrinə, ümumiyyətlə mədəniyyətin inkişafına və ölkəmizin dünyaya inteqrasiyasına, heç şübhəsiz, böyük təkan verəcək Avropa idman oyunlarının yüksək səviyyədə keçirilməsində, inşa olunan möhtəşəm idman komplekslərinin vaxtından əvvəl istifadəyə verilməsində tikinti kompleksi işçilərinin - layihəçilərin, memarların, inşaat mühəndislərinin və digərlərinin böyük əməyi vardır.

Bu gün ölkə iqtisadiyyatının dinamik inkişafı və xalqın rifahının yaxşılaşdırılması tikintidə çalışan insanların əməyinin nəticəsindən çox asılıdır. Bu baxımdan müstəqil illərdə, xüsusən 2004-2016-cı illərdə və hal-hazırda Azərbaycan iqtisadiyyatının əlverişsiz xarici mühit şəraitində davam etdirilməsinə baxmayaraq, (dünya hələ də maliyyə böhranını hiss edir) tikinti kompleksində çalışan insanlar mühüm dövlət layihələrinin həyata keçirilməsində, tərəqqinin əldə olunmasında fəal iştirak edir və ölkənin iqtisadi sabitliyini möhkəmləndirir.

Müasir şəraitdə inşaatçı yalnız işinin bütün incəliklərini bilən mütəxəssis deyil, eləcə də iqtisadçı və müasir dövrün informasiya istifadəçisi kimi çıxış edir, yeni elmi işləmələri nəzərdə saxlayır, qabaqcıl idarəetmə sistemlərini tətbiq edir və özünə layiqli əvəz hazırlayır.

Bütün çətinliklərə baxmayaraq, tikinti sahəsi bu gün də ən çox ehtiyac duyulan sahələr sırasındadır. Çünki iqtisadi böhrandan çıxış üçün lazım olan sağlam potensial məhz prioritet proqramların və əlverişli sosial-iqtisadi tədbirlərin həyata keçirilməsi ilə formalaşır.

Sevimli vətənimizin hər yerində, iş sahələrində hər gün yüzlərlə, minlərlə inşaatçılar tikinti meydançalarına çıxır, onlar müstəqil ölkəmizin qüdrətini artırırlar.

Qarşıda tikinti kompleksində çalışan insanların üzərinə mühüm vəzifələr qoyulmuşdur və ölkənin sosial-iqtisadi inkişafı, Azərbaycan xalqının rifahının yaxşılaşdırılması onların həyata keçirilməsindən xeyli dərəcədə asılıdır. Şübhə yoxdur ki, inşaatçılar onların qarşısına qoyulan vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gələcəklər.

Heydər Əliyevin Azərbaycan Respublikasına başçılıq etdiyi dövrdə olduğu kimi, bu gün də tikinti kompleksinin işçiləri əzmlə çalışırlar.

Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi çox görkəmli sima, dövlət idarəçiliyi sahəsində böyük və təcrübəli siyasət adamı, dövlət xadimi idi.

Prezident İlham Əliyev də öz fəaliyyəti ilə sübut edir ki, o, ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısıdır. Möhtərəm dövlət başçısının son illərdəki fəaliyyəti bunu aydın göstərir.

**Eldar Nuriyev,**
**Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun Şöbə müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru**

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 1941-1945-ci illər İkinci Dünya müharibəsində **Qələbənin 73-cü ildönümü ilə əlaqədar qərara alıram:**

**1.** 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına 1000,0 (min) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500,0 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədi ilə:

**2.1.** Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,9 milyon (beş milyon doqquz yüz min) manat ayrılsın;

**2.2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həmin vəsaitin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

**2.3.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 aprel 2018-ci il**






# BAKININ FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏDƏ ƏVƏZOLUNMAZ ROLU

1941-1945-ci illər Böyük Vətən müharibəsinə Azərbaycandan 700 min nəfər gedib. Onlardan 400 min nəfərdən çoxu döyüş meydanlarında həlak oldu. Azərbaycanın müharibədə iştirakı bununla bitməyib. **Qələbənin qazanılmasında Abşeron nefti əvəzedilməz rol oynadı. Böyük Vətən müharibəsi illərində SSRİ-də çıxarılan neftin 75%-ni Bakı verirdi.**

**Faktiki olaraq bu o deməkdir ki, döyüşlərdə iştirak edən 10 tankdan 7-si, 10 təyyarədən 10-u Bakı nefti ilə işləyirdi.**

...1941-ci il iyun ayının 22-si səhər saat 4-də alman-faşist qoşunları müharibə elan etmədən, 930 millik cəbhə boyunca hücuma keçdi.

Adolf Hitler öz niyyətlərini, ümumi və konkret vəzifələri olduqca aydın cəmləşdirib demişdi: "Biz Rusiyanı nə qədər tez məhv etsək, bir o qədər yaxşıdır".

Əlbəttə ki, SSRİ-yə hücumun əsas hədəfi "Bakının neft yataqlarına çıxmaq idi".

Böyük Vətən müharibəsinə, varlığını qorumağa, öz "Kim dünyanı idarə etmək istəyirsə, neftə nəzarəti ələ keçirməlidir. Bütün neftə - harada olursa olsun, harada çıxırsa, çıxsın!" Britaniya aviasiyasının dağıdıcı zərbələrinə məruz qalmış sintetik yanacaq istehsalı isə alman ordusunun 20% tələbatını belə ödəməyə qadir deyildi.

Burda bir alman hərbi iqtisadçısının xəbərdarlığını yada salmaq yerinə düşərdi. O, açıq şəkildə bildirirdi ki, belə getsə, "kiçik hərbi birləşmələrə, atlara, at arabalarına qayıtmağın vaxtıdır!"

Azərbaycanda isə cəbhəni vaxtlı-vaxtında neft və neft məhsulları ilə təmin etmək üzrə aparılan işlər daha da genişlənirdi. Neftçilər, sözün əsl mənasında, möcüzələr yaradırdı. Onlar yuxu bilmədən, cüzi ərzaq payı ilə kifayətlənərək (çəkdikləri fiziki gərginliyin, ağır zəhmətin müqabilində) gecə-gündüz işləyirdilər.

1941-ci ildə kəşfiyyat qazma işlərinin həcmi Azərbaycan neft sənayesi tarixində özünün ən yüksək göstəricisinə - 43.274 tona çatdırıldı.

Həmin mürəkkəb dövrdə Azərbaycan xalqının düşmənə qarşı qətiyyətlə ayağa qalxması onun mübarizə, əzmkarlıq ruhunu, birliyini, intellektual və texniki po-




torpaqlarının müdafiəsinə qalxan Sovet İttifaqı hərbi dövrün tələblərinə uyğun olaraq dövlət idarəetmə qurumlarında məqsədyönlü dəyişmələr apardı.

Ölkənin bütün hakimiyyəti İosif Stalinin sədri olduğu Dövlət Müdafiə Komitəsinin (DMK) əlində cəmləşdi. Dövlət Müdafiə Komitəsi Azərbaycan Respublikası qarşısında da çox vacib öhdəliklər qoydu. Olduqca qısa müddət ərzində hərbi dövrün tələbləri ilə respublika xalq təsərrüfatının yenidən qurulmasında geniş, əhatəli işlər görüldü. Respublika sənayesinin bütün potensialı hərbi məhsulların istehsalına yönəldildi.

Bütün maşınqayırma zavodları, yüngül və yeyinti sənayesi müəssisələri, toxuculuq fabrikləri, kooperativ təşkilatları orduya lazım olan tələbatı ödəməyə səfərbər edildi.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Bakı şəhər Komitəsinin 1941-ci ilin noyabrında keçirilən birgə iclasında neft sənayesi və xalq təsərrüfatı qarşısında duran bütün vəzifələr bir daha konkretləşdirildi. Müharibənin ilk günlərində almanlar nəzərdə tutduqlarından da xeyli qabağa getdilər. Onlar sürətlə irəliləyirdi. Lakin tezliklə həyəcan təbili çalındı. – Yanacaq çatmır!

Əlahəzrət neft, daha doğrusu, onun çatışmazlığı özünü büruzə verməkdəydi. Sovet İttifaqının çətin keçilən bərbad yolları, yol kəsişmələri nəqliyyat vasitələrini ikiqatdan da artıq yanacaq işlətməyə məcbur edirdi.

Alman generalları 1941-ci ilin avqust ayında Hitlerə təklif etdilər ki, əsas zərbə Moskvaya yönəlsin. Fürer bundan imtina etdi. Onun 1941-ci ilin avqust ayında verdiyi direktivdə deyilirdi:

- "Qış hücumunun qarşısındakı daha vacib məsələ Moskvanı deyil, Don çayının üzərindəki kömürçıxarma sənayesi rayonunu və Krımı almaq, həmçinin Qafqaz bölgəsindən neftin rus ordusuna göndərilməsinə mane olmaqdır".

Vermaxt Bakını almalıydı. Krıma gəldikdə isə, Hitler onu rumın neft yataqlarına hücum etmək üçün "Sovet təyyarə gəmisi" adlandırırdı...

Hitler özünün SSRİ-yə "Barbarossa" hücum planını genişləndirərək, xüsusi vurğu ilə öz generallarının diqqətinə çatdırdı ki, neft ***Bakını mütləq tutmalıyıq. O və onun ətrafındakılar yaxşı başa düşürdü ki, Bakı nefti olmadan Şərq kampaniyasında uğur qazanmağa ümid yox dərəcəsindədir.***

Onlar XX əsri 20-ci illərinin axırından əmin idilər ki, Sovet İttifaqı özünün neft hasilatını intensiv surətdə artırmaqdadır. Bütün dünyaya ağalıq etmək iddiasında olan alman strateqləri və onların müttəfiqləri bircə prinsipə güvənirdilər:

tensialını bir daha üzə çıxarmış oldu. Alman qoşunlarının SSRİ-yə hücum etməsinin ilk günlərindən ölkənin bütün iqtisadiyyatı hərbi relslər üzərinə keçirildi. ***Bakı neftçiləri bütün çətinliklərə qəhrəmanlıqla sinə gərərək hökumətdən gələn istənilən tapşırığın yerinə yetirilməsinə nail olurdu.***

Azərbaycan neftçiləri düşmən üzərində qələbə naminə fədakarlıqla çalışaraq cəbhədəki vəziyyəti gərginliklə izləyir, oradan gələn hər bir xoş xəbərə, gündəlik qazanılan hər qələbəyə əmək cəbhəsindəki yeni uğurları ilə cavab verirdilər.



***Bakı Sovet İttifaqının neftlə döyünən qəlbi idi. Və Hitler Bakını tutacağına tam əmin idi. Buna görə də üzərində Xəzərin, Bakının konturları olan tortu böyük həvəslə kəsmişdi.***

Ancaq sonrakı hadisələr göstərdi ki, Hitler həmin tortu kəsməkdə çox tələsibmiş. ***Bakını tutmaq almanlara nəsib olmadı, üstəlik faşist Almaniyası Bakı neftində boğuldu…*** Yanacaqsız qalan almanların tank qoşun birləşmələri Qafqaz dağlarının ətəyində dayanmağa məcbur oldular. 1941-ci ilin yekunlarına görə, Sovet İttifaqı 33 milyon ton neft hasil etdi.

***Ölkənin baş neft rayonu – Bakı şəhəri rekord göstərici ilə istehsalı 23,5 milyon tona çatdırdı!***

Azərbaycan neftinə xas yüksək göstəricilər özünü keyfiyyətdə də olduqca aydın büruzə verirdi. Abşeron yataqlarındakı bir sıra quyulardan çıxarılan yüksək oktanlı neft buna sübutdur. Yüksək keyfiyyətli benzin də məhz bundan hazırlanırdı.

Bakını basılmaz qalaya çevirmək əsas vəzifə idi. Qafqazın o tayından Hitlerin Bakıya diş qıcadığı bir vaxtda neftçilərimizdə döyüşkənlik, mübarizlik, yüksək vətənpərvərlik ruhunun aşılanması gərəkli mənəvi keyfiyyət idi...

**(Mənbə: Bakı nefti. Qələbənin açarı. Şərəfli keçmiş, işıqlı gələcək. 1941-1945)**

# «PAŞA BANK» ASC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

| | Qeydlər | 2017 | 2016 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 5 | 1,465,771 | 1,105,769 |
| Ticarət qiymətli kağızları | 6 | 2,224 | 22,669 |
| Kredit təşkilatlarından alınacaq məbləğlər | 7 | 592,029 | 728,121 |
| İnvestisiya qiymətli kağızları | | | |
| - satış üçün mövcud olan | 8 | 405,530 | 173,329 |
| - kreditlər və debitor borcları | 8 | 40,408 | 61,220 |
| Törəmə maliyyə aktivləri | 18 | 1,665 | 984 |
| Müştərilərə verilmiş kreditlər | 9 | 1,350,668 | 1,107,274 |
| İnvestisiya əmlakı | 10 | 1,668 | 1,654 |
| Əmlak və avadanlıqlar | 11 | 12,808 | 12,809 |
| Qeyri-maddi aktivlər | 12 | 48,954 | 55,067 |
| Cari mənfəət vergisi aktivləri | | 2,154 | – |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 19 | 640 | 1,647 |
| Digər aktivlər | 13 | 33,896 | 19,302 |
| **Cəmi aktivlər** | | **3,958,415** | **3,289,845** |
| **Öhdəliklər** | | | |
| Banklar və dövlət fondları qarşısında öhdəliklər | 14 | 399,973 | 330,294 |
| Müştərilər qarşısında öhdəliklər | 15 | 2,889,961 | 2,350,687 |
| Digər borc öhdəlikləri | 16 | 39,105 | 51,473 |
| Buraxılmış borc öhdəlikləri | 17 | 81,765 | 18,705 |
| Törəmə maliyyə öhdəlikləri | 18 | 2,058 | 2,468 |
| Cari mənfəət vergisi öhdəlikləri | | 1,136 | 12,436 |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 19 | 10,056 | 8,446 |
| Zəmanətlər və akkreditivlər üçün ehtiyat | 21, 22 | 3,112 | 6,959 |
| Digər öhdəliklər | 13 | 32,100 | 21,111 |
| **Cəmi öhdəliklər** | | **3,459,266** | **2,802,579** |
| **Kapital** | | | |
| Səhmdar kapitalı | 20 | 333,000 | 333,000 |
| Bölüşdürülməmiş mənfəət | | 113,601 | 83,152 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları üzrə xalis realizasiya olunmamış zərər | | (24) | (1) |
| Məzənnə fərqləri üzrə ehtiyat | | 52,496 | 71,046 |
| **Bankın səhmdarlarına aid olan cəmi kapital** | | **499,073** | **487,197** |
| Qeyri-nəzarət payları | | 76 | 69 |
| **Cəmi kapital** | | **499,149** | **487,266** |
| **Cəmi öhdəliklər və kapital** | | **3,958,415** | **3,289,845** |

| | Qeydlər | 2017 | 2016 |
|---|---|---|---|
| **Faiz gəliri** | | | |
| Müştərilərə verilmiş kreditlər | | 126,613 | 105,063 |
| Kredit təşkilatlarından alınacaq məbləğlər | | 59,096 | 35,647 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları | | 25,488 | 9,755 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 16,740 | 2,122 |
| | | **227,937** | **152,587** |
| Ticarət qiymətli kağızları | | 2,142 | 4,915 |
| Maliyyə lizinqi üzrə debitor borcları | | 1,032 | – |
| | | **3,174** | **4,915** |
| **Faiz xərci** | | | |
| Müştərilər qarşısında öhdəliklər | | (71,534) | (40,530) |
| Banklar və dövlət fondları qarşısında öhdəliklər | | (12,066) | (10,185) |
| Digər borc öhdəlikləri | | (1,057) | (1,757) |
| Buraxılmış borc qiymətli kağızları | | (4,715) | (396) |
| Digər | | – | (138) |
| | | **(89,372)** | **(53,006)** |
| **Xalis faiz gəliri** | | **141,739** | **104,496** |
| Faiz qazandıran aktivlər üzrə dəyərsizləşmə üçün ehtiyatın geri qaytarılması/(ehtiyat) | 22 | 3,111 | (11,447) |
| **Faiz qazandıran aktivlər üzrə dəyərsizləşmə üçün ehtiyatdan sonra xalis faiz gəliri** | | **144,850** | **93,049** |
| Xalis haqq və komissiya gəliri | 23 | 11,191 | 12,564 |
| Ticarət qiymətli kağızlarından xalis gəlirlər | | 3,065 | 109 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızlarından xalis (zərərlər)/gəlirlər | | (102) | 84 |
| Xarici valyutadan xalis gəlirlər: | | | |
| - dilinq əməliyyatları üzrə | | 33,380 | 57,810 |
| - yenidən qiymətləndirmə üzrə | | 2,910 | 8,699 |
| - xarici valyuta ilə törəmə alətlərilə əməliyyatlar | | 1,624 | 2,304 |
| Digər gəlir | | 533 | 433 |
| **Qeyri-faiz gəliri** | | **52,601** | **82,003** |
| İşçilər üzrə xərclər | 24 | (43,891) | (35,358) |
| Ümumi və inzibati xərclər | 24 | (30,927) | (33,449) |
| Köhnəlmə və amortizasiya | 11, 12 | (7,451) | (6,678) |
| Lisenziya və qudvilin dəyərsizləşməsi | 12 | (6,236) | (3,642) |
| Maliyyə aktivlərinin ilkin olaraq ədalətli dəyərlə tanınması üzrə zərər | | – | (1,474) |
| Zəmanətlər və akkreditivlər üzrə ehtiyat geri qaytarılması/(ehtiyat) | 22 | 3,844 | (6,580) |
| **Qeyri-faiz xərcləri** | | **(84,661)** | **(87,181)** |
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət** | | **112,790** | **87,871** |
| Mənfəət vergisi xərci | 19 | (23,698) | (18,583) |
| **İl üzrə xalismənfəət** | | **89,092** | **69,288** |
| **Mənfəət aiddir:** | | | |
| - Bankın səhmdarlarına | | 89,085 | 69,281 |
| - qeyri-nəzarət payının mülkiyyətçilərinə | | 7 | 7 |
| | | **89,092** | **69,288** |

| | Qeydlər | 2017 | 2016 |
|---|---|---|---|
| **İl üzrə xalis mənfəət** | | **89,092** | **69,288** |
| **Digər ümumi gəlir** | | | |
| *Sonrakı dövrlərdə mənfəət və ya zərərə yenidən təsnifləşdirilməli olan digər ümumi gəlir* | | | |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları üzrə ümumi realizasiya olunmamış (zərərlər)/gəlirlər | | (131) | 208 |
| Konsolidasiya edilmiş mənfəət və ya zərər haqqında hesabata yenidən təsnif edilmiş satış üçün mövcud olan investisiya qiymətli kağızları üzrə realizasiya olunmuş zərərlər/(gəlirlər) | | 102 | (84) |
| **Satış üçün mövcud olan investisiya qiymətli kağızları üzrə xalis realizasiya olunmamış (zərərlər)/gəlirlər** | 20 | **(29)** | **124** |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları üzrə xalis (zərərlərin)/gəlirlərin vergi effekti | 19 | 6 | (25) |
| Xarici valyuta üzrə məzənnə fərqi | 20 | (18,550) | (9,198) |
| **Sonrakı dövrlərdə mənfəət və ya zərərə yenidən təsnifləşdirilməli olan xalis digər ümumi zərər** | | **(18,573)** | **(9,099)** |
| **İl üzrə cəmi ümumi gəlir** | | **70,519** | **60,189** |
| **Mənfəət aiddir:** | | | |
| - Bankın səhmdarlarına | | 70,512 | 60,182 |
| - qeyri-nəzarət payının mülkiyyətçilərinə | | 7 | 7 |
| | | **70,519** | **60,189** |

| | *Bankın səhmdarlarına aiddir* | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | *Səhmdar kapitalı* | *Bölüşdürülməmiş mənfəət* | *Satış üçün mövcud olan investisiya qiymətli kağızları üzrə xalis realizasiya olunmamış gəlir/(zərərlər)* | *Məzənnə fərqi* | *Cəmi* | *Qeyri-nəzarət payları* | *Cəmi kapital* |
| **31 dekabr 2015-ci il** | **333,000** | **19,283** | **(100)** | **80,244** | **432,427** | **62** | **432,489** |
| İl üzrə xalis mənfəət | – | 69,281 | – | – | **69,281** | 7 | **69,288** |
| İl üzrə digər ümumi gəlir/(zərər) | – | – | 99 | (9,198) | **(9,099)** | – | **(9,099)** |
| **İl üzrə cəmi ümumi gəlir/(zərər)** | **–** | **69,281** | **99** | **(9,198)** | **60,182** | **7** | **60,189** |
| Bankın səhmdarlarına dividendlər (Qeyd 20) | – | (5,412) | – | – | **(5,412)** | – | **(5,412)** |
| **31 dekabr 2016-cı il** | **333,000** | **83,152** | **(1)** | **71,046** | **487,197** | **69** | **487,266** |
| İl üzrə xalis mənfəət | – | 89,085 | – | – | **89,085** | 7 | **89,092** |
| İl üzrə digər ümumi zərər | – | – | (23) | (18,550) | **(18,573)** | – | **(18,573)** |
| **İl üzrə cəmi ümumi gəlir/(zərər)** | **–** | **89,085** | **(23)** | **(18,550)** | **70,512** | **7** | **70,519** |
| Bankın səhmdarlarına dividendlər (Qeyd 20) | – | (58,636) | – | – | **(58,636)** | – | **(58,636)** |
| **31 dekabr 2017-ci il** | **333,000** | **113,601** | **(24)** | **52,496** | **499,073** | **76** | **499,149** |

| | Qeydlər | 2017 | 2016 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Alınmış faiz | | 195,836 | 130,157 |
| Ödənilmiş faiz | | (53,321) | (38,697) |
| Alınmış haqq və komissiya | | 24,545 | 20,730 |
| Ödənilmiş haqq və komissiya | | (13,722) | (8,117) |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızlarının satışından əldə edilmiş xalis realizasiya edilmiş (zərərlər)/gəlirlər | | (102) | 84 |
| Ticarət qiymətli kağızlarından realizasiya edilmiş xalis gəlir | | 2,849 | 1,017 |
| Xarici valyuta ilə dilinq əməliyyatlarından və xarici valyuta ilə törəmə alətlərlə əməliyyatlardan zərərləri çıxmaqla realizasiya edilmiş gəlirlər | | 35,811 | 60,747 |
| İşçilərlə bağlı ödənilmiş xərclər | | (40,869) | (26,041) |
| Ödənilmiş ümumi və inzibati xərclər | | (29,839) | (32,262) |
| Alınmış digər əməliyyat gəliri | | 1,794 | 382 |
| **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə əldə edilmiş pul vəsaitlərinin hərəkəti** | | **122,982** | **108,000** |
| *Əməliyyat aktivlərində xalis (artma)/azalma* | | | |
| Ticarət qiymətli kağızları | | 20,428 | 22,274 |
| Kredit təşkilatlarından alınacaq məbləğlər | | 138,964 | (583,565) |
| Müştərilərə verilmiş kreditlər | | (270,754) | (179,617) |
| Digər aktivlər | | (4,074) | (1,095) |
| *Əməliyyat öhdəliklərində xalis artma/(azalma)* | | | |
| Banklar və dövlət fondları qarşısında öhdəliklər | | 96,099 | (72,062) |
| Müştərilər qarşısında öhdəliklər | | 506,475 | 874,709 |
| Digər borc öhdəlikləri | | (15,112) | (48,120) |
| Törəmə maliyyə öhdəlikləri | | – | 1,110 |
| Digər öhdəliklər | | 5,388 | (1,497) |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə əldə edilmiş xalis pul vəsaitləri** | | **600,396** | **120,137** |
| Ödənilmiş mənfəət vergisi | | (31,552) | (6,252) |
| **Əməliyyat fəaliyyəti üzrə əldə edilmiş xalis pul vəsaitləri** | | **568,844** | **113,885** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızlarının alınması | | (1,849,253) | (231,358) |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızlarının satılması və geri alınmasından daxilolmalar | | 1,619,165 | 78,569 |
| İnvestisiya qiymətli kağızlarının alınması – kreditlər və debitor borcları | | (32,888) | (27,105) |
| İnvestisiya qiymətli kağızlarının satılması və geri alınmasından daxilolmalar – kreditlər və debitor borcları | | 52,841 | 50,627 |
| Əmlak və avadanlıqların alınması və avans ödənişləri | | (5,685) | (2,356) |
| Qeyri-maddi aktivlərin satın alınması | | (6,562) | (4,526) |
| Əmlak və avadanlıqların satılmasından daxilolmalar | | 42 | 34 |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitləri** | | **(222,340)** | **(136,115)** |
| **Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Buraxılmış istiqrazlardan daxilolmalar | 29 | 165,216 | 19,258 |
| Buraxılmış istiqrazların geri alınması | 29 | (101,321) | – |
| Ödənilmiş dividendlər | 20 | (58,636) | (5,412) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə əldə edilmiş xalis pul vəsaitləri** | | **5,259** | **13,846** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə valyuta məzənnələrinin dəyişməsinin təsiri | | 8,239 | 92,847 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artma** | | **360,002** | **84,463** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin əvvəlinə | 5 | 1,105,769 | 1,021,306 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin sonuna** | 5 | **1,465,771** | **1,105,769** |

## Müstəqil auditorun hesabatı

"PAŞA Bank" ASC-nin səhmdarlarına və İdarə Heyətinə

***Rəy***

Biz "PAŞA Bank" ASC-nin və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2017-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər, konsolidasiya edilmiş digər ümumi gəlir, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla konsolidasiya edilmiş maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2017-ci il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın *Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti* bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsi"nə ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Qrupdan müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Konsolidasiya edilmiş maliyyə hesabatları üçün rəhbərliyin və audit komitəsinin məsuliyyəti***

Rəhbərlik konsolidasiya edilmişmaliyyə hesabatlarının MHBS-yə uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan konsolidasiya edilmişmaliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Konsolidasiya edilmişmaliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Qrupu ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətlə bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit komitəsi Qrupun konsolidasiya edilmişmaliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

***Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti***

Bizim məqsədimiz ümumiyyətlə konsolidasiya edilmişmaliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürülməklə hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

- Konsolidasiya edilmişmaliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Qrupun daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gələcəyimiz halda, biz auditor hesabatımızda konsolidasiya edilmiş maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Bizim nəticələr audit hesabatımızın tarixinədək əldə etdiyimiz audit sübutlarına əsaslanır.Lakin gələcək hadisə və ya şəraitlər Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla konsolidasiya edilmişmaliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmununu, eləcə də konsolidasiya edilmişmaliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz Audit komitəsinin nəzərinə, digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə müəyyən etdiyimiz hər hansı əhəmiyyətli çatışmazlıqları çatdırırıq.

**9 mart 2018-ci il, Bakı, Azərbaycan**

# Auditorlar Palatasının sədri UNEC tələbələri qarşısında




UNEC-də Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun iştirakı ilə elmi seminar keçirilib.

"Elmi-tədqiqat ili" çərçivəsində keçirilən seminara "Mühasibat uçotu və audit" kafedrasının professor-müəllim heyəti, Maliyyə və mühasibat fakültəsinin tələbələri qatılıblar.

Professor V.Novruzov "Şəffaflığın təmin olunmasında hesabatlılığın və auditin rolu" mövzusunda məruzə ilə çıxış edib. O, dünya iqtisadiyyatında baş verən təlatümlərin iqtisadiyyatın tənzimlənməsində və idarə edilməsində bir sıra problemlərin aktuallığını daha da artırdığını bildirərək, bunların içərisində şəffaflığın yüksəldilməsi, hesabatlılığın, uçotun və nəzarət sisteminin təkmilləşdirilməsinin müstəsna əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Professor müasir şəraitdə auditin vəzifələrini daha dolğun və cəmiyyətin maraqlarını təmin edə biləcək bir səviyyədə reallaşdıra bilməsi üçün peşəkarlıq, zəruri diqqətlilik, peşə biliklərinin davamlı yüksəldilməsi, peşə xidmətlərinin lazımi səviyyədə təmin edilməsi, qanunvericiliyə və peşə standartlarına tam riayət olunması, peşəyə xələl gətirən hərəkətlərə yol verilməməsi kimi bir sıra vacib tələblərə cavab verməli olduğunu bildirib. Vurğulanıb ki, yalnız bu şərtlər daxilində audit özünün təkcə iqtisadi rolunu yox, həm də sosial öhdəliklərini yerinə yetirmək hüququ qazana bilər və bizim fəaliyyətimizin əsas məqsədi də bundan ibarətdir.

Müzakirələrlə davam edən seminarda təkliflər səsləndirilib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# "Bakcell"in yeni CİN tarifləri ilə daha ÇOX danış!




Tam yeni həftəlik və aylıq CİN paketləri sayəsində yaxınlarınızla bol ünsiyyət sevinci yaşayın.

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti böyük məmnuniyyətlə abunəçilərinə sərfəli qiymətə daha ÇOX danışmaq imkanı verən tam yeni CİN1 və CİN5 tariflərini təqdim edib.

Yeni istifadəyə verilmiş CİN1 təklifi sayəsində müştərilər həftədə sadəcə 1 AZN ödəməklə 100 dəqiqə (həftə ərzində istifadə üçün 50 şəbəkədaxili dəqiqə və həftə sonu ərzində istifadə üçün 50 şəbəkədaxili dəqiqə) və 50 SMS əldə edəcəklər. Bu təklifdən həm yeni, həm də cari Bakcell abunəçiləri yararlana bilərlər. Həmçinin, CİN1 tarifi ilə yeni nömrə alan bütün abunəçilərin hesabına əlavə olaraq 2 AZN və 120 Mb İnternet bonus əlavə ediləcək.

CİN5 tarifi ilə isə abunəçilər ayda sadəcə 5 AZN ödəyərək 600 dəqiqə (həftə ərzində istifadə üçün 300 şəbəkədaxili dəqiqə və həftə sonu ərzində istifadə üçün 300 şəbəkədaxili dəqiqə) və 300 SMS əldə edib bol ünsiyyət sevinci yaşayacaqlar.

"Biz istəyirik ki, dəyərli abunəçilərimiz dəqiqələrə xərclənən pulu fikirləşmədən öz yaxınları ilə istədikləri qədər sərbəst danışa bilsinlər. CİN1 və CİN5 tarifləri abunəçilərə çeviklik və ünsiyyət rahatlığı təmin etmək üçün yaradılıb və bu təkliflərdən yararlanan müştərilər daha çox ünsiyyət imkanı əldə edəcəklər", deyə Bakcell şirkətinin baş marketinq direktoru Todor Dimitrovski bildirib.

Yeni CİN tariflərinə qoşulmaq asandır. CİN1 tarifinə qoşulmaq üçün *301#YES kodunu, CİN 5 tarifinə qoşulmaq üçün isə *305#YES kodunu yığın.

"Müasir mobil rabitə xidmətləri istifadəçilərinin tələbləri gündən-günə dəyişməkdədir. Biz isə onların tələb və gözləntilərini qarşılamaq üçün öz xidmətlərimizi daha rahat etməyə çalışırıq. İnnovasiya sahəsində özünü doğrultmuş lider olan Bakcell öz müştərilərinə yenilənmiş, rahat və maraqlı təkliflər verməyə davam edəcək", - deyə Todor Dimitrovski əlavə edib.

Yeni CİN1 və CİN5 tarifləri və Bakcell şirkətinin digər sərfəli təklifləri barədə daha ətraflı məlumatı www.bakcell.com səhifəsində əldə etmək olar.

# Bakcell gözdən əlil uşaqlar arasında şahmat və dama turnirinə dəstək verib

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti 25 aprel - 5 may 2018-ci il tarixlərində Bakı şəhərində keçirilən gözdən əlil uşaqlar arasında şahmat və dama turnirinə dəstək göstərib.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş şahmat və dama turniri Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat Məktəbində keçirilib. 40 nəfərdən artıq gözdən əlil uşağın iştirak etdiyi turnirin qalibləri Məmmədov Nahid (şahmat) və Əzizov Əzim (dama) olublar.

Turnirdə yaxşı nəticələr göstərmiş gənc istedadlı şahmatçı və damaçılara "Bakcell"dən dəyərli hədiyyələr təqdim edilib.

"Bakcell" şirkəti artıq bir neçə ildir ki, ölkəmizdə keçirilən uşaq şahmat turnirlərinə öz dəstəyini əsirgəmir. Özünün "Bakcell Stars" Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə Şirkət Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərir və xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərə yönəlmiş geniş miqyaslı layihələri həyata keçirir.

# Fondun Müşahidə Şurasının növbəti iclası keçirilib



Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək gündəlikdəki məsələlər barədə məlumat verib:

1. Fondun jurnalist təşkilatları üçün keçirdiyi "Azərbaycan media məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzularında müsabiqənin elanının müzakirəsi və təsdiqi.
2. Fondun Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü və Azərbaycan Milli Mətbuatının yaranmasının 143-cü ildönümü münasibətilə təşkil etdiyi fərdi jurnalist yazıları müsabiqəsi elanının müzakirəsi və təsdiqi.
3. Cari məsələlər.

Gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün söz Fondun icraçı direktoru Vüqar Səfərliyə verilib. İcraçı direktor jurnalist təşkilatları üçün təşkil olunan ənənəvi müsabiqənin mediada ədəbi dilin normalarının qorunması və kütləvi informasiya vasitələri əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədinə xidmət etdiyini bildirib. V.Səfərli "Azərbaycanın media məkanında ədəbi dilin qorunması", "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzularını əhatə edən müsabiqənin mayın 4-dən 22-dək keçiriləcəyini, hər istiqamət üzrə qalib olacaq təşkilata layihənin icrası üçün mərhələli şəkildə 20 min manat maliyyə vəsaitinin ayrılacağını bildirib.

Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən - Bəhruz Quliyev, İntiqam Hümbətov, Ramiz Həsənov müsabiqənin kütləvi informasiya vasitələrində ədəbi dilin normalarının qorunması, bu sahədə mövcud nöqsan və çatışmazlıqların aşkar olunaraq aradan qaldırılmasına xidmət edən maarifləndirici tədbirlərin həyata keçirilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıblar. Müzakirələrin sonunda müsabiqə elanı səsə qoyularaq yekdilliklə təsdiq edilib.

İcraçı direktor Vüqar Səfərli gündəlikdəki ikinci məsələ barədə məlumat verərək bildirib ki, Fondun Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü və Milli Mətbuatının yaranmasının 143-cü ildönümü münasibətilə təşkil etdiyi fərdi jurnalist yazıları müsabiqəsinin "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçirilməsi nəzərdə tutulur.

Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən - Cəmaləddin Quliyev, Bəhruz Quliyev, Ayaz Mirzəyev və Ramiz Əskər ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyinin stimullaşdırılması və peşəkarlıq səviyyəsinin yüksəldilməsi baxımından əhəmiyyətini qeyd ediblər.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor Vüqar Səfərli Fondun perspektiv fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

# Bu ay "SOCAR Polymer" layihəsi üzrə polipropilen zavodunda ilk məhsul istehsal olunacaq

Mayda Sumqayıt Kimya Sənaye Parkının nəzdindəki "SOCAR Polymer" layihəsi üzrə polipropilen zavodunda ilk məhsul istehsal ediləcək. Bu barədə "SOCAR Polymer" şirkətinin direktoru Fərid Cəfərov deyib.

O bildirib ki, layihə üzrə EPC podratçısı olan "Tecnimont" şirkəti "SOCAR Polymer" kompleksini SOCAR-a bu il tam təhvil verəcək: "SOCAR Polymer" müəssisəsinin polipropilen zavodunda isə ilk məhsulun may ayında istehsal olunması nəzərdə tutulur. "Tecnimont"un polipropilen zavodunu iyun ayında SOCAR-a təhvil verməsi gözlənilir. Yüksəksıxlıqlı polietilen qurğusu isə ikinci rübün sonunda – avqust və ya sentyabr ayında təhvil veriləcək. Kompleksdə istehsal olunan məhsulların 30 faizi daxili bazarın tələbatını ödəyəcək, 70 faizi ixrac ediləcək. İxrac üçün nəzərdə tutulan məhsulun əsas hissəsi Türkiyə bazarına çatdırılacaq. Uzunmüddətli perspektivdə kompleks üzrə ümumilikdə 15 min iş yeri açıla bilər".

# Azərbaycandan keçməklə Çindən Avropaya daşınan yüklərin həcmi 5,2 dəfə artıb

2018-ci ilin birinci rübündə "Trans-Xəzər Nəqliyyat Marşrutu" ilə Çindən Avropaya daşınan yüklərin həcmi 5,2 dəfə artıb. Bu barədə "Qazaxıstan Dəmir Yolları" Səhmdar Cəmiyyətinin rəhbəri K.Alpısbayev "Beynəlxalq Trans-Xəzər Nəqliyyat Marşrutu" Assosiasiyasının Bakıda keçirilən tədbirində deyib. O bildirib ki, "Trans-Xəzər Nəqliyyat Marşrutu" ilə 302 min ton yük daşınıb. Bu, ötən ilin müvafiq dövrünə nisbətən 8% artım deməkdir.

# "SOCAR Georgia Gas" bu il Gürcüstanın qazpaylayıcı şəbəkələrinin təmirinə 3 milyon dollara yaxın sərmayə qoyacaq

"SOCAR Georgia Gas" bu il Gürcüstanda qazpaylayıcı şəbəkələrin təmir olunmasına 7 milyon lari (təqribən 2,860 milyon dollar) məbləğində investisiya yatıracaq".




Bu sözləri "SOCAR Georgia Gas" şirkətinin direktoru Azər Məmmədov Tbilisidə keçirilən V Beynəlxalq "Caspian Energy Forumu"nda söyləyib.

Direktor deyib ki, "SOCAR Georgia Gas" şirkəti Gürcüstanda investisiya öhdəliklərini artıqlaması ilə yerinə yetirib. Bununla belə işlərini davam etdirir. Biz bu il, eləcə də gələcəkdə kommersiya baxımından daha çox cəlbedici olan layihələri həyata keçirməkdə maraqlıyıq.

# Azərbaycan ərazisində kömür və taxıl konteyner daşımaları ilə bağlı qiymətlər endirilib

"Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi ilə müxtəlif təyinatlı yüklərin daşınmasını həll etmək üçün vahid qiymət, "bir pəncərə" prinsipi müəyyən olunmalıdır.



Bu barədə Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, əsas məqsəd bu nəqliyyat dəhlizi çərçivəsində tariflərin tənzimlənməsi, vaxtın müəyyən edilməsi, sürətin artırılması və sairdir. "Azərbaycan qiymətləri müəyyən qədər endirib. Azərbaycan ərazisində kömür və taxıl konteyner daşımaları ilə bağlı bütün qiymətlər endirilib. Bundan başqa, Türkiyə və Ukrayna da qiymətləri endirəcəkləri ilə bağlı söz veriblər", - deyə C.Qurbanov vurğulayıb.




# İran Azərbaycan ilə energetika sahəsində əməkdaşlıq əlaqələrinin inkişafına önəm verir

Bu sözləri müsahibəsində İranın energetika naziri Rza Ərdakanian deyib.

Nazir nəzərə çatdırıb ki, Prezident Həsən Ruhaninin Azərbaycana rəsmi səfərindən cəmi bir ay keçməsinə baxmayaraq, hər iki dövlətin müvafiq qurumları arasında enerji mübadiləsi haqqında razılıq əldə edilib ki, bu da qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini deməyə əsas verir.

Onun sözlərinə görə, əldə edilmiş razılığa əsasən cari ilin yayında da Azərbaycan ilə İran arasında 800 meqavatt elektrik enerjisi mübadiləsi həyata keçiriləcək. Elektrik enerjisinə olan tələbatın artmasını nəzərə alaraq İran Azərbaycandan 180 meqavatt elektrik enerjisini idxal edə bilər.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov ilə mayın 7-də keçirdiyi görüşə toxunan R.Ərdakanian bildirib ki, görüşdə bərpa olunan alternativ enerji mənbələrinin işlənməsi sahəsində də əməkdaşlığın davam etdirilməsinə dair razılıq əldə olunub. Bununla yanaşı, "Xudafərin" və "Qız qalası" hidroqovşaqları, eyni zamanda, "Ordubad" və "Marazad" Su Elektrik Stansiyalarının tikintisi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb və aparılan işlərin sürətləndirilməsinin vacibliyi vurğulanıb.



R.Ərdakanian nəzərə çatdırıb ki, görüşdə, həmçinin Azərbaycan-İran-Rusiya arasında elektrik enerjisi dəhlizinin yaradılması da müzakirə edilib. Üç ölkə arasında elektrik enerjisi sistemlərinin birləşdirilməsinin optimal variantının müəyyənləşdirilməsi üçün davamlı müzakirələrin məqsədəuyğunluğu qeyd edilib. Nazir bu dəhlizin yaradılmasının İran ilə Azərbaycanın enerji sistemlərinin inkişafına təkan verəcəyini bildirib.

# Azərbaycanda metallurgiya məhsullarının ixrac potensialının yüksəldilməsi

**(əvvəli 17-ci sayımızda)**

Ən iri qara metallurgiya mərkəzləri olan Bakı, Sumqayıt, Gəncə və Daşkəsən bu sahədə geniş potensiala malikdir. Əlvan metallurgiyaya gəlincə, Daşkəsən alunit, Naxçıvan Muxtar Respublikası volfram, molibden, qurğuşun-sink, Kəlbəcər, Laçın, Göygöl, Tovuz, Gədəbəy rayonları qızıl və mis yataqları ilə zəngindir. Bu yataqların istismarını təmin etməklə ölkədə metallurgiyanın sürətli inkişafına nail olmaq mümkündür. Müstəqil dövlət kimi öz sərvətlərimizdən səmərəli istifadə etmək, sənaye məhsullarını dünya bazarına çıxarmaq imkanlarımız tam realdır.

Ölkə başçısının 23.04.13-cü il tarixli sərəncamı ilə "Azərbaycan Polad İstehsalı Kompleksi" (APİK) Qapalı SC-nin yaradılması da bu strategiya üçün bazanın formalaşdırılmasına hesablanmışdır. QSC-yə həvalə olunan əsas vəzifə polad istehsalı kompleksinin layihələndirilməsi, tikintisi və idarə olunmasından, bu sahədə yeni texnologiyaların tətbiqindən, maddi-texniki bazanın müasirləşdirilməsindən və ondan səmərəli istifadə edilməsindən ibarətdir. APİK QSC yeni texnologiyaları, texniki vasitələri tətbiq etməklə yüksək keyfiyyətli poladın, digər qara metalların istehsalını, emalını, onlardan müasir tələblərə cavab verən rəqabətədavamlı məhsulların istehsalını, daxili və xarici bazarlarda satışını həyata keçirəcək. QSC, həmçinin dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edən, habelə poladdan, digər qara metallardan hazır məhsulların istehsalı üzrə müasir zavodların və istehsal sahələrinin mühəndis-axtarış, layihələndirmə və tikintisi işlərinin həyata keçirilməsini reallaşdıracaq.

Artıq APİK QSC-də ölkə rəhbərinin sərəncamından irəli gələn vəzifələrin icrasına başlanıb. Bu məqsədlə məsləhətçi şirkət də seçilib. Yaponiyanın "Marubeni Corporation" konsaltinq şirkəti Gəncə və Daşkəsəndə dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edəcək polad istehsalı kompleksinin yaradılması ilə bağlı Azərbaycan tərəfinə məsləhət xidməti göstərəcək. Müqaviləyə əsasən, "Marubeni Corporation" bu sahədə Azərbaycanda xammal bazasını araşdıracaq, dəmir filizi hasilatı və polad istehsalında müasir texnologiyaların tətbiqi, istehsal olunan məhsulların çeşidi barədə təkliflər verəcək, ölkə və region üzrə perspektivli hesab olunan digər bazarları təhlil edəcəkdir. Məsləhətçi şirkət, həmçinin istehsal ediləcək müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsulların iqtisadiyyatın müxtəlif sahələrində - tikinti, maşınqayırma, neft sənayesi, gəmiqayırma sahələrində istifadə imkanları barədə müvafiq təkliflər hazırlayacaq. Hazırda yaponiyalı, kanadalı və ingiltərəli mütəxəssislər Azərbaycandadır və onlar tədqiqatlara başlayıblar.

Azərbaycan Respublikasında polad və polad məhsullarının idxalının qarşısını almaq üçün APİK QSC 2015-2018-ci illərdə ölkədə mövcud müəssisələrin yenidən qurulmasını və yeni istehsalların işə salınmasını nəzərdə tutan tədbirləri reallaşdırmalıdır. İlkin olaraq dənəvər dəmir istehsalı, reduksiya yolu ilə dəmir istehsalı və polad istehsalı zavodları işə salınacaq. Respublikada poladdan istehsal olunan məhsulların (armatur, şveller, rels, borular, polad məftil və s.) istehsalı ilə məşğul olacaq zavod və sexlərin yenidən qurulması işləri davam etdiriləcək. SC-nin strukturunda olan "Daşkəsən Filizsaflaşdırma" ASC-də hazırda texniki bazanın yenidən qurulması, işçilərin sosial müdafiəsinin və əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi tədbirlərinin həyata keçirilməsi, onların müvafiq sosial xidmətlərlə təmin edilməsi üçün komissiya yaradılıb və araşdırmalara başlanıb.

Göstərmək lazımdır ki, indiki gündə uğur qazanmaq üçün bir çox təşkilatlar lazımi dərəcədə işlənib hazırlanmış və müvafiq adekvat strategiyalara malik olmalıdırlar. Bu baxımdan da milli iqtisadiyyatımızda metallurgiya sənayesinin ixrac potensialını gücləndirmək məqsədi ilə biznes strategiyalar hazırlanmalı, həmçinin onlar mütəşəkkil və ardıcıl olaraq reallaşdırılmalıdır.

Metallurgiya sənayesində ixracın artırılması istiqamətində uğur əldə edilməsi məqsədilə indi və gələcəkdə fəaliyyət göstərəcək müəssisələr üçün mühüm əhəmiyyətli situasiyalar qiymətləndirilməlidir. Sahənin müvəffəqiyyətli inkişafının təmin edilməsi çoxsaylı amillərlə müəyyən olunur. Daxili bazarın və burada metallurgiya məhsullarına tələbatların hərtərəfli tədqiq edilməsi, məqsədli bazarın ehtiyaclarının öyrənilməsi, eləcə də həmin tələbatın ödənilməsinə uyğun olaraq məqsədlərin formalaşdırılması mühüm amillərdən biridir.

Sahə müəssisələrinin strategiyalarında bir sıra məqamlara xüsusi diqqət verilməlidir ki, bu təşkilatlar vaxtı çatanda bazarda artan irəliləyişə nail ola bilsinlər. Bunun üçün qeyd edildiyi kimi, ilk növbədə bazarın tədqiq edilməsi həyata keçirilməlidir. Bu fəaliyyətin həyata keçirilməsi istənilən təşkilatda onun korporativ və ya xüsusi sektorda işləməsindən asılı olmayaraq, həyati əhəmiyyət kəsb edir. Bazarın müfəssəl tədqiqi aşağıdakılara zəmin yarada bilər:

*- təşkilatların özünün marketinq fəaliyyətinin daha da effekli təşkil edilməsinə;*

*- metallurgiya müəssisələrinin həm qısamüddətli, eləcə də uzunmüddətli biznes məqsədlərinin hazırlanmasına;*

*- məqsədli istehlakçılara məhsulların satılması və xidmətlərin göstərilməsi üzrə bir sıra müxtəlif yanaşmaların işlənib hazırlanmasına;*

*- şirkətlərin gələcək mənfəətinin daha dəqiq proqnoz edilməsinə və s. Bundan başqa, bazarın tədqiqi şirkətlərə mənfəət həddinin dürüst (tam vaxtında) müəyyən edilməsinə köməklik edə bilər və s.*

Bazarın bilavasitə tədqiqinin aparılmasına qədər bir sıra əsas məsələlərə aydınlığın gətirilməsi lazımdır:

◎ potensial alıcılara;

◎ istehlakçıların arzuladıqlarına, onların zərurətlərinə və hansı resurslara malik olmalarına;

◎ fəaliyyətin maksimal effektivliklə aparılması üçün təşkilatlara müəyyən yardımların, yaxud məhsulların lazım olmasına;

◎ təşkilatın məhsulları və ya xidmətlərinin onun müştəriləri tərəfindən əldə edilməsinin mümkünlüyünə;

◎ müəssisələrin əmtəələrinə və xidmətlərinə tələbatın hər hansı üsulunun yaradılmasına;

◎ istehsalçıların özlərinin rəqibləri ilə qiymət, keyfiyyət və tədarük üzrə rəqabət göstərməsinə;

◎ şirkətlərin adekvat olaraq xalis mənfəət əldə etmələrinə təminat vermək üçün onların əmtəə və xidmətlərinə qiymətin hansı yolla müəyyən edilməsinə;

◎ təşkilatların məhsul və xidmətlərinə analoji olaraq nə qədər şirkətin təkliflər etməsinə;

◎ müəssisələrin əmtəə və xidmətlərinin harada satılacağı sahələrin iqtisadi vəziyyətinə;

◎ müəssisələrin hansı bazar seqmentlərinin artmasına və hansılarının azalmasına və s.

Bazarda müvəffəqiyyətli fəaliyyəti təmin edən amillərdən biri də bazar haqqında informasiyanın əldə edilməsidir. Bazarın mümkün olduğu qədər yaxşı olmasını bilmək çox vacibdir. Bu, təşkilatlara əmtəə və xidmətləri haqqında aydın təsəvvürlərin yaradılması ilə yanaşı, həm də onların istehlakçıları barədə zəruri məlumatların toplanmasına imkan verir. İstehsalçılar özlərinin əmtəə və xidmətlərinin alqısı ilə bağlı sosial-iqtisadi vəziyyətin təfəkkür prosesinə təsir etməsinin bütün mümkün olanlarını bilməlidirlər. Belə informasiyaları müəssisələr müxtəlif mənbələrdən əldə edə bilərlər. Məsələn, sahibkarlar birliyindən. Burada istehsalçılara külli miqdarda ödənişsiz çoxsaylı informasiya əlçatan olmalıdır.

Rəqabət bazardakı uğurun qazanılması amillərindən biridir. Rəqabətin tədqiq olunması çox böyük əhəmiyyətə malikdir və bu məsələyə çox ciddi yanaşılmalıdır. Mümkün olduğu təqdirdə istehsalçılar sərgilərdə və ticarət yarmarkalarında da iştiraklarını təşkil etməlidirlər. Burada istehsalçılar öz rəqiblərinin əmtəə və xidmətlərindən, onların əmtəə və xidmətlərinin necə reklam olunmasından və mövqelərini müəyyən etmək işindən xəbərdar olacaqlar. Sərgi və ticarət yarmarkalarında, həmçinin sahə üzrə fəaliyyət göstərən təşkilatlar əldə oluna bilən bütün son nəşrləri gözdən keçirə bilərlər. Bu nəşrlər bazarda olan yenilikləri və təmayülləri izləməyə imkan yaradır, rəqiblər üzərində üstünlüyün əldə edilməsinin faydalı tövsiyə və metodlarını istehsalçılara təqdim edir.

Əgər metallurgiya sənayesində artıq fəaliyyətdə olan təşkilatlar öz planlarının genişləndirilməsini gözdən keçirmək istəyirlərsə, onda onlar istehsal-təsərrüfat fəaliyyətlərinin strategiyalarını planlaşdırarkən öncə mövcud strategiyaların təkmilləşdirilməsi ilə məşğul olmalıdırlar. Bu zaman hər bir bölmənin bütün mövcud strategiyalarını aydınlaşdırmaq vacibdir. Həmin bölmələrə, ilk növbədə maliyyə, marketinq, satış, idarəetmə və istehsal aid edilməlidir.

Birbaşa olaraq təşkilatın strateji planının hazırlanmasına gəldikdə isə buraya bir neçə məqamı daxil etmək lazımdır. İstənilən yaxşı strategiya aşağıda göstərilənlərə toxunmaqla bir neçə müxtəlif prosesi özündə cəmləşdirir.

Yeni təşkilatın fəaliyyətə başlamasından əvvəl yaxşı strategiyalar yığımına malik olması, yaxud şirkətlərin genişləndirilməsi üzrə planların reallaşdırılması çoxsaylı uzunmüddətli qazanclar gətirir.

Azərbaycan iqtisadiyyatının və sənayesinin rəqabətqabiliyyətli inkişaf, ilk növbədə iqtisadi artımın yeni keyfiyyətini təmin edən bilik iqtisadiyyatına keçidi tələb edir. Onun başlıca xarakteristikası isə yüksək texnologiyalı sahələrin dinamik inkişafı, tədqiqat və işləmələrə investisiya qoyuluşunun intensiv artımı, məhsul və xidmətlərin elm tutumluluğunun, müəssisələrin innovasiya fəallığının yüksəldilməsi və iqtisadiyyatda innovasiya mənfəətinin artırılmasına nail olunmasıdır. Mövcud ehtiyatlardan maksimum istifadə edərək, onların sənayenin tələbatlarının ödənilməsinə yönəldilməsi təmin olunmalıdır. Bu amilin reallaşdırılması üçün ETT-nin ən yeni nailiyyətləri əsasında istehsalın daha da inkişaf etdirilməsi və hərtərəfli formalaşdırılmış müasir sənaye sahələrinin təşəkkülü prosesi həyata keçirilməlidir.

Qeyri-neft sənayesinin strukturunda aparılan keyfiyyət dəyişiklikləri iqtisadi siyasətin mühüm tərkib hissəsinə çevrilməlidir. Dayanıqlı iqtisadi artımın əsas mənbəyi kimi texnoloji bazanın müasirləşdirilməsi vəzifəsi təmin olunmalıdır. Mövcud köhnə istehsal fondlarının və texnoloji avadanlıqların ümumi fondda xüsusi çəkisinin həcminin tədricən azaldılması, kapital axınının köməyi ilə yenilərinin payının artması prosesi davam etdirilməlidir.

Qeyd edilənlərdən bu nəticəyə gəlmək olar ki, tələbatların daha da artması fonunda metallurgiya sahəsinin ehtiyatları dünya miqyasında sürətlə azalacaqdır. Odur ki, Azərbaycanda bu sənaye sahəsinin inkişafının perspektivdə ölkəmizin ixrac imkanlarının artırılmasına gətirib çıxarması olduqca vacibdir.

**İ.B.Əmirov,**
**Sumqayıt Dövlət Universitetinin baş müəllimi**

# «Bakı Şampan Şərabları» ASC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

manat

| Maddə № | | Hesab № | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | 101-102+103 | 27 500 | 27 500 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 111-112+113 | 5 041 540 | 5 073 270 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | 121-122 | - | - |
| 13 | Bioloji aktivlər | 131-132 | 72 362 | 72 362 |
| 14 | Təbii sərvətlər | 141-142 | - | - |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | 15X | - | - |
| 16 | Təxirə salınmış vergi aktivləri | 16X | 8 781 | 8 781 |
| 17 | Uzunmüddətli debitor borcları | 17X | - | - |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | 18X-184 | - | - |
| 19 | Sair uzunmüddətli aktivlər | 19X | - | - |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **5 150 183** | **5 181 913** |
| 2 | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | 20X-208 | 1 495 580 | 1 972 319 |
| 21 | Qısamüddətli debitor borcları | 21X-218 | 170 433 | 190 990 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 22X | 884 | 16 351 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | 23X-235 | - | - |
| 24 | Sair qısamüddətli aktivlər | 24X | 92 293 | 95 184 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **1 759 190** | **2 274 844** |
| **CƏMİ AKTİVLƏR** | | | **6 909 373** | **7 456 757** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| 3 | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 301-302 | 6 814 018 | 7 369 018 |
| 31 | Emissiya gəliri | 31X | - | - |
| 32 | Geri alınmış kapital (səhmlər) | 32X | - | - |
| 33 | Kapital ehtiyatları | 33X | - | - |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 34X-344 | 13 853 | 2 666 |
| | **CƏMİ KAPİTAL** | | **6 827 871** | **7 371 684** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 40X | - | - |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | 41X | - | - |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | 42X | - | - |
| 43 | Uzunmüddətli kreditor borcları | 43X | - | - |
| 44 | Sair uzunmüddətli öhdəliklər | 44X | - | - |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **-** | **-** |
| 5 | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 50X | - | - |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 51X | - | - |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 52X | 32 224 | 929 |
| 53 | Qısamüddətli kreditor borcları | 53X | 49 098 | 84 143 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 54X | 180 | - |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **81 502** | **85 073** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **81 502** | **85 073** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | **6 909 373** | **7 456 757** |

**DİREKTOR**

**BAŞ MÜHASİB**

20.02.2018

manatla

| Bölmə / maddə | Maddələrin adı | Hesabın №-si | Qeydlər | 01.01.2017 31.12.2017 | 02.01.2016 31.12.2016 |
|---|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 601çıxılsın 602 çıxılsın 603 | | 457 975 | 1 144 045 |
| 70 | Satışın maya dəyəri | 701 | | 456 676 | 1 042 952 |
| | **Ümumi mənfəət** | | | **1 300** | **101 093** |
| 61 | Sair əməliyyat gəlirləri | 611 | | 273 495 | 185 644 |
| 71 | Kommersiya xərcləri | 711 | | 31 384 | 46 642 |
| 72 | İnzibati xərclər | 721 | | 71 786 | 77 627 |
| 73 | Sair əməliyyat xərcləri | 731 | | 155 708 | 156 939 |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər) | 621 çıxılsın 741 | | - | - |
| | **Əməliyyat mənfəəti (zərəri)** | | | **15 917** | **5 530** |
| 63 | Maliyyə gəliri | | | - | - |
| 75 | Maliyyə xərcləri | | | - | - |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | 811 | | | |
| | **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | | | **15 917** | **5 530** |
| 90 | Mənfəət vergisi | 901 üstəgəl 902 | | 5 234 | 2 864 |
| | **Adi fəaliyyətdən mənfəət və ya zərər** | | | **10 683** | **2 666** |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | 641 çıxılsın 761 | | - | - |
| **80** | **Hesabat dövründə xalis mənfəət (zərər)** | **801= Hesablama** | | **10 683** | **2 666** |
| | Hər səhm üzrə mənfəət | Hesablama | | | |
| | Azaldılmış hər bir səhm üzrə mənfəət | Hesablama | | | |

### *Xarakterinə görə təsnifləşdirməni istifadə etməklə əməliyyat xərcləri haqqında informasiya*

| Bölmə / maddə | Maddələrin adı | Hesabın №-si | Qeydlər | 01.01.2017 31.12.2017 | 02.01.2016 31.12.2016 |
|---|---|---|---|---|---|
| | Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişikliklər | Son qalıqlar çıxılsın ilkin qalıqlar | | (483 965) | (130 437) |
| | Müəssisə tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | 103 və 113 №-li hesabların debetləri üzrə dövriyyə | | - | - |
| | İstifadə edilmiş material ehtiyatları | (701-3) və (701-2) üzrə qalıqların cəmi | | 669 299 | 657 471 |
| | İşçi heyəti üzrə xərclər | (701-3) üstəgəl (711-1) üstəgəl (721-1) | | 318 921 | 547 489 |
| | Amortizasiya xərcləri | (701-4) üstəgəl (711-2) üstəgəl (721-2) | | 39 984 | 65 996 |
| 73 | **Sair əməliyyat xərcləri** | **731** | | **165 791** | **164 859** |
| | **Cəmi əməliyyat xərcləri** | | | **710 029** | **1 305 379** |

**DİREKTOR**

**BAŞ MÜHASİB**

21.02.2018

**Sərbəst auditor Xaləddin Calal oğlu Əliyev**
**Aliyev Khaladdin Jalal, the Independent Auditor**

**Baku, Azerbaijan, Babak ave. 95, apt. 122;** **mobile: (+99450) 394-66-02**
**xaladdin-aliyev@mail.ru** **VÖEN;1600253112**

**«Bakı Şampan Şərabları » Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə**

**Müstəqil auditorun hesabatı**

**Rəy**

Mən "Bakı Şampan Şərabları" ASC-nin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına (KTMMUS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının " Etika məcəlləsinin" (İESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Kommersiya Təşkilatları Ücün Milli Mühasibat Uçotu Standartlarına (KTMMUS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir. .

Hesabat 19.03.2018-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri "**Bakı Şampan Şərabları " ASC–nin** rəhbərliyinə təqdim edilir, ikincisi isə sərbəst auditorda saxlanılır.

**Sərbəst auditor:** **X.C.Əliyev**

**M.Y**

**19 mart 2018-ci il**

## Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü və 22 iyul - Azərbaycan Milli Mətbuatının yaranmasının 143-cü ildönümü ilə əlaqədar jurnalist yazıları müsabiqəsi elan edildi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" ilə müəyyən edilmiş dövlət dəstəyinin prioritet sahələrinə uyğun olaraq 19 istiqaməti üzrə jurnalist yazıları müsabiqəsi elan edir.

Müsabiqə elan olunan günədək ən azı 1 (bir) il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, informasiya agentliyi və rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqəyə təqdim olunan yazılara aid tələblər və yazıların qəbul qaydaları ilə www.kivdf.gov.az saytında tanış ola bilərsiniz.

Yazıların qəbulu 04 may 2018-ci il tarixdə başlayır, 12 iyul 2018-ci il tarixdə başa çatır.

Qiymətləndirmə meyarları:

- mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma;
- materialın oxucu üçün informasiyalılıq səviyyəsi;
- yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti;
- ictimai maraqların müdafiəsi.

**Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması**

Hər istiqamət üzrə 6 qalib müəyyən edilir:

**I yer üçün bir nəfər (500 AZN)**
**II yer üçün iki nəfər (400 AZN)**
**III yer üçün üç nəfər (300 AZN)**

Yazılar 10 ballıq sistem üzrə qiymətləndirilir, maksimum 50 bal müəyyən olunur. 30-dan aşağı bal toplamış yazı müəllifləri mükafatçılar siyahısına düşmür.

**Əlaqə telefonları:**
**(012) 537 19 45,**
**(012) 537 19 41;**
**Elektron ünvan:**
**kivdf.info@gmail.com**

## Bu il Azərbaycana 630 min əcnəbi gəlib

2018-ci ilin I rübündə Azərbaycana dünyanın 151 ölkəsindən 629,4 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Trend-in məlumatına görə, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın 2018-ci ilin aprel sayında bildirilib.



2018-ci ilin mart ayı ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların həcmi 105,8 milyon manat təşkil edib və ötən ilin mart ayı ilə müqayisədə 16 faiz artıb.

Ümumiyyətlə, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-mart ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların həcmi 18 faiz artaraq 296,7 milyon manat təşkil edib.







## Azercell-in dəstəyilə III Buktreyler Festivalının qalibləri müəyyən olub



2 may 2018-ci il tarixində Azercell Telekom MMC-nin tərəfdaş qismində iştirak etdiyi III Buktreyler Festivalının Qala gecəsi baş tutub. Gecədə festivalın qalibləri elan olunub və mükafatlandırma mərasimi keçirilib. Beləliklə, birinci yerə xalq yazıçısı Anarın seçilmiş əsərlərinə çəkdiyi treylerə görə Tural Kərimov adlı müəllif layiq görülüb. İkinci yeri Firdovsi Nəbiyev "Şahid" buktreyleri və Cavid Nuriyev "İkimizin hekayəsi" işi ilə paylaşıblar. Üçüncü yerə isə Sərdar Tağıyev "Almafobiya", Binyamin Sailov "Can nənə, bir nağıl de" və Eybulla Ağadadaşov "Bulud bağçaları" treylerləri ilə layiq görülüblər.

1-ci, 2-ci (2 nəfər) və 3-cü (3 nəfər) yer qalibləri uyğun olaraq 1000, 800 (hər biri) və 500 (hər biri) AZN olmaqla pul mükafatı qazanıblar. Müsabiqəyə təqdim olunmuş buktreylerlərə ölkəmizin tanınmış yazıçıları, kinoşünasları və ictimai xadimlərinin daxil olduğu münsiflər heyəti qiymət verib. Qeyd edək ki, mütaliənin və maariflənmənin cəmiyyətimizdə təbliği, kino sahəsində istedadlı və yaradıcı gənclərin üzə çıxarılması məqsədi daşıyan festivalda çap şəklində nəşrdən çıxmış (nəşr ilindən asılı olmayaraq) azərbaycanlı müəllifin kitabından və ya kitab seriyasından bəhs edən Buktreylerlər iştirak ediblər.

Tədbirdə Azercell-in nümayəndəsi hələ 2015-ci ildə şirkət tərəfindən təqdim olunan Bookmate kitabxanasının texniki göstəricilərindən bəhs edib, bütün iştirakçılara mobil əlavədən 1 aylıq, qaliblərə isə 1 illik istifadə kodları hədiyyə edilib. Mütaliə mədəniyyətinin inkişafı, kitaba marağın artırılması üçün indiyə qədər bir sıra uğurlu layihələrə imza atan Azercell Telekom bundan sonra da gənclər arasında bu istiqamətdə sosial layihələrin həyata keçirilməsinə dəstək olacaq.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyevə əzizi
**ELMAN ƏKBƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyevə əzizi
**ELMAN ƏKBƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500